HƏMİD NİTQİ (AYTAN)

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

"AVRASİYA PRESS"
BAKI–2005

Tərtib edəni və
ön sözün müəllifi: **Sabir Nəbioğlu**

Redaktor: **Umud Rəhimoğlu**

**894.3611 - dc21**
**AZE**

**Həmid Nitqi (Aytan).**
Seçilmiş əsərləri. Bakı, "AVRASİYA PRESS ", 2005, 152 səh.

Güney Azərbaycanımızın görkəmli ədəbi simalarından olan Həmid Nitqinin bu kitabına, ustadın kəskin ahəngli, yığcam, müasir dünyamızın mənzərəsini gözümüz qarşısında canlandıran şeirləri və poemaları toplanmışdır.

Bu əsərlərdə insanın daxili yaşantıları ilə xarici aləm arasındakı münasibətlər özünəməxsus təhkiyə ilə qələmə alınmışdır.

**ISBN 9952-421-28-X**

© "AVRASİYA PRESS", 2005

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

## GƏLƏCƏK NƏSİLLƏRİN MÜASİRİ

Sirlər, müəmmalar, qəribəliklərlə dolu olan dünyamızda bir məna axtarmaq heç də ayaqları gerçək aləmdən üzülən bir xəyalpərvərlik olmazdı. Həmid Nitqi ömür yolu barədə söhbət açdığı müsahibələrin birində demişdir:

– Şeyx Məhəmməd Xiyabani gözlərini həyata yumduğu gün mən dünyaya göz açdım.

Bu inqilab bahadırının – Xiyabaninin, kimliyi barədə bizim bu müqəddiməmizdə söz açmağa yəqin ki, ehtiyac yoxdur. Fəqət, onun özündən sonrakı nəslə, xüsusilə dünyadan köçdüyü gün həyata yaşamaq vəsiqəsi alanlara mötəbər bir vəsiyyət kimi səslənən fikrini burada yada salmağa gərəkli zərurət duyuruq. O demişdir:

– Kişinin ayaqları altında azad Vətən torpağı olmalı, başının üstündə ölkəsinin istiqlaliyyət bayrağı dalğalanmalıdır.

Mir Həmid Nitqi 1920-ci ildə Güney Azərbaycanda bir sıra mötəbər söz elçilərinin işıqlı aləmə göz açdıqları Təbrizin məşhur Surxab məhəlləsində dünyaya gəlmişdir. O, elm və bilik aləmində ilk addımlarını o zaman molla mədrəsəsi səviyyəsində bilik verən məhəllə məktəbində atmışdır.

Lakin o, səmimi ünsiyyət tapdığı bu bilik ocağı ilə çox tez vidalaşdı. Məktəbdə artıq "Balaca alim" adı qazanmış Həmid ailəsi ilə Astara şəhərinə köçdü.

Ailəsi yenidən Təbrizə qayıdarkən Həmidin özü ilə gətirdiyi ən qiymətli sərvət məhz Astara mühitində onun uşaqlıq aləminə həkk olunan unudulmaz xatirələri oldu.

Həmid təhsilini Təbrizdə məşhur Firdovsi adına məktəbdə davam etdirdi. Dövrünün tanınmış şairlərindən olan Həbib Sahirin həmin məktəbdə müəllimlik etməsini şair həmişə taleyinin ona bəxş etdiyi qiymətli bir hədiyyə kimi qiymətləndirirdi. Həbib müəllim onu həm coğrafiya elminin rəngarəng aləminə səfərə çıxardır, həm də poeziyanın sirlər dünyasına aparan yollarına nur çiləyirdi.

Gənc Həmid 1936-cı ildə Tehrana getdikdən sonra "İqdam", "İttilaat", "Mərdane kar", "Dəmavənd", "Xavəri-no", "Qanun" və digər qəzetlərdə maraqlı yazılarla çıxış edir.



Həmid Nitqinin yaradıcılığında onun qələminə mənsub olan dərs kitablarının sanballı yeri vardır. Bu səpkidə olan əsərləri sırasında "Siyasi əlaqələr barədə", "Mətbuat və jurnalistika", "İnandırma, təbliğat və reklamçılıq", habelə başqalarının adlarını çəkmək olar.

1948-ci ildə Avropaya səfərindən dönən şair "İngilis-İran neft şirkətinin ümumi əlaqələr və qəzetçilik" İdarəsində işə başlayır. Az sonra isə şirkət tərəfindən "Xəbərhaye ruz" qəzetinin redaktoru, 3 il sonra isə onun imtiyaz sahibi olur.

1983-cü ildə yeni yaranan "Əllamayi Təbatəbai" universitetində müşavirlik vəzifəsinə seçilir. Bir il sonra həmin universitet ona "Ümumi əlaqələr elminin atası" adını verir.

Alim 1979-cu ildən İngiltərənin məşhur Edenburq Universitetində "İslam və Orta Şərq" araşdırmalar bölməsində elmi fəaliyyətini davam etdirir.

1979-cu ildə İran inqilabının qələbəsi sosial-ictimai, siyasi, iqtisadi həyatın bütün sahələrini Pəhləvi rejiminin şovinist və özbaşına hökmranlığının buxovlarından azad etdi.

Bu bir tarixi həqiqətdir ki, qəddar Rza şahın şovinist siyasətinin məhrumiyyətləri Azərbaycanda daha eybəcər cəhətləri ilə təzahür etmişdi. 1928-ci ildə ölkədə türkdilli mətbuat və kitab nəşri rejim tərəfindən rəsmi surətdə qadağan olunmuşdu.

Həmid Nitqi yaxından iştirakı ilə yaranan "Varlıq" jurnalı hələ işıq üzü gördüyü dövrə qədər çətin sınaqlarla qarşılaşmış və mənsub olduğu xalqın milli varlığı, mədəniyyəti, dili və tarixi ənənələri uğrunda əsil fədakarlıq məktəbi keçmişdi. Şair məcmuənin işini qaydaya salmaqda, onu dövr və zamanın tələblərinə cavab verə biləcək məqalələrlə təmin etməkdə redaktor Cavad Heyətin sağ əli oldu.

1979-cu ildən sonra yaranmış nisbi azadlıq yazıda, əlifbada müxtəlif problemlər doğurmuşdu. İşıq üzü görən hər mətbu orqan az qala öz imla qaydaları ilə hərəkət edirdi. Bu anlaşılmazlığı aradan qaldırmaqda, ərəb əlifbasının Azərbaycan türk dilinin fonetik tələblərinə uyğunlaşdırmaqda Həmid Nitqinin əməyi ölçüyəgəlməzdir.

Həmid Nitqinin doğma ana dilinə olan məhəbbətinin səbəblərini araşdırarkən belə bir nəticəyə gəlmək heç də yanlış və mübahisəli olmazdı ki, uzun illərdən bəri dilinin hakim şovinist dairələr tərəfindən inkar edilməsi onun köksündə Vətən və doğma xalqına məhəbbət eşqi ilə çırpınan ürəyinə elə zərbələr vurmuşdu ki, bu yaraları sağaltmaq

üçün çox kəsərli məlhəm lazım idi. Ustad haqqında bir sıra dəyərli əsərlərin müəllifi olan Əlirza Sərrafi "İlk görüş" adlı məqaləsində onun daxili aləminin aynası kimi qəbul edilməyə layiq olan belə bir epizod təsvir edir:

"Bir gün dilimizin rəsmi məhfəllərdə (məclislərdə) yasaq olunduğundan söz düşdü. O, fars şovinistlərinə xitabən belə dedi: – Haqq budur ki, mənim dilimi mənim şəxsiyyətimin ayrılmaz bir parçası kimi qəbul edəsiniz. Məndən istəməyin ki, bir rəsmi məhfələ girəndə əvvəlcə dilimi də müzahim börk və paltom kimi çıxardıb, paltarasandan aslayıb sonra məclisə girim".

1994-cü ildə qələmə aldığı "Heydərbabaya salam" – kütləvi xalq türkcəsi və klassik fars şeirləri arasında bir qarşılaşma" adlı məqaləsi müəllifinə geniş şöhrət qazandırdı. Elə həmin il 25 illik pedaqoji fəaliyyətinə görə, o, rəsmən "İranın jurnalistika və xalq ilə əlaqələrinin atası" mükafatı ilə təltif olundu. Həmin il o, Azərbaycan Yazıçılar Birliyi üzvlüyünə qəbul edilmiş, həm də Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinin fəxri professoru elmi adı ilə təltif olunmuşdur.

Həmid Nitqi adı, hər şeydən əvvəl, güclü bədii təfəkkürə malik olan bir sənətkar, ədəbiyyat nəzəriyyəçisi, dilçi, ədəbiyyatşünas, tənqidçi ünvanları ilə yan-yana çəkilir. Bu ünvanlamada çox ədalətli bir məntiq vardır. Poetik yaradıcılıq üçün özül daşı ola biləcək bir fikrə diqqət edək; ürəkdən sevmədən əsil poetik əsər yaratmaq eşqinə düşənin istəyi ancaq bir xülya olaraq qalardı:

Söz olar,
Fikir olar,
Fəqət, şeir olmaz –
Çırpınan ürəklə yazmasa əlin.

Ədəbi aləmlə az-çox ünsiyyətdə olan hər bir qələm sahibi bu misralarda böyük bir həqiqətin öz ifadəsini tapdığını təsdiq etməkdən çəkinməzdi.

Həmid Nitqinin "Şeyx Məhəmməd" adlı şerinin misraları göz önündən gəlib keçdikcə qəribə bir qüvvə oxucunu qüdrətli qanadları üzərinə alaraq tufanlı, qasırğalı, ildırımlı, şimşəkli bir məkandan onun təfəkkürü üçün, düşünüb-daşınması üçün aydınlıq məşəli alovlandıran bir



aləmə qaldırır. Bu nurlu məkanda bütün əriş-arğacı qədd çəkib dayanır. Bu düşüncə aləmində özünə cavab axtaran ilk sorğu bizcə belə səslənərdi: poeziya adlanan qılıncsız, süngüsüz qəhrəman bu ehtiva qabiliyyətini, dərk edib düşündüklərini beləcə anlaşıqlı bir tərzdə ifadə qüdrətini haradan, nədən kəsb edir?

Qeyd edək ki, xalqın çoxəsrlik döyüş və mübarizə tarixinə Şeyx Məhəmməd Xiyabani dövrü ilə daxil olan bu əzəmətli hərəkat təkcə baş verdiyi diyarda deyil, bütün qonşu ölkələrdə qüvvətli bir əks-səda doğurmuşdu. O illərdə şahlıq üsul-idarəsinin girdabında əzab çəkən bir diyarı "Azadistana" çevirmək hərəkatının baş amalı idi. Həmid Nitqinin misralarının poetik məntiqi çox aydın bir dillə o hərəkatı ustalıqla dərk etdiyini, ona tərəfdar olduğunu və alqışladığını açıb ortaya qoyur.

Fəqət, belə bir idealın hələ gül açmadan şaxtaya, borana düşməsi şairi dərin düşüncəyə daldırır. Nə üçün, nədən, azad bir məxluq kimi dünyaya gələn insan oğlu qul itaətkarlığına tabe olmalıdır?

Tarixin daş yaxasından tutaraq onu qüdrətli qolları ilə silkələyib cavab tələb edən sorğunun ifadəçiləri olan misraları bu dildə danışırdılar:

Amma neçün,
Vədə etdiyin
Saat çalmadı?
Nədən əkdiyin ağac
Dal-budaq salmadı, –
Yaralar sağalmadı?

Bu misraların tanış etdikləri qəhrəmanın simasında oxucu bədii təfəkkürə, yüksək siyasi şüura, yetkin dünyagörüşünə, taleyini mənsub olduğu xalqın və torpağın taleyindən fərqləndirməyən bir döyüşçünü görür. Şair düşmənlərin qurtuluş hərəkatı döyüşçülərinin köksünə vurduqları atəşin sızıltısını öz sinəsində hiss edirsə onun kimliyini və hansı ideallarla yaşadığını təqdim üçün başqa vasitələrə əl atmağa ehtiyac qalmır.

Misraların ötdükləri nəğmələrin motivinin ən ümdələrindən biri də onların məharətli bələdçilər kimi oxucuları şairin təfəkkür, düşüncə, siyasi baxış dünyasına aparmalarıdır.

Şairin zehnində və ürəyində cücərən həyati nəhalların (körpə budaqların) başlıca qidalanma mənbəyi onun Vətənin taleyi barəsində sinəsində baş qaldıran idealları idi: "Elə çıraq yandırmaq lazımdır ki, ixtiyarınız öz əlimizdə olsun".

Bəşərin gerçək varlığa münasibətini müəyyənləşdirən qüvvənin insanın əhatəsində yaşadığı mühitin olduğu xüsusi sübut və dəlil tələb etməyən bir aksiomadır. Təbii ki, şair də öz dövrünün, böyüyüb boy atdığı siyasi mühitin övladı olduğundan bu dilemma onu da sidq edir. Ulu Şəhriyara:

Sənin bəhrən, yiyən kimdir?
Kiminkisən, yiyən kimdir?
Sənə "doğru" deyən kimdir?
Yalan dünya, yalan dünya!

– misralarını yazdıran qüvvənin ünvanını müəyyənləşdirmək üçün baş sındırmağa azacıq belə ehtiyac yoxdur.

Yaxud, qüdrətli qələm və qibtəedilecək təfəkkür sahibi olmuş Səməd Behrəngiyə:

"Elə bir zamanda yaşayırıq ki, sağ göz sol gözü aldadır" – qənaətini diktə edən qüvvənin sorağı həmin ünvana aparıb çıxardır.

Həmid Nitqi adlarını çəkdiyimiz sənətkarların ləyaqətli müasirlərindən idi. O da onlarla eyni torpağın çörəyini yeyir, havası ilə nəfəs alırdı.

Mövcud cəmiyyətin əsil simasını açıb ortaya qoymaqda filosof təfəkkürlü şairin baş ustadı cəmiyyətdə hökm sürən və sağlam düşüncənin, bununla yanaşı millətinin sədaqətli övladlarının məqbul hesab etmədikləri görüşlərin onda doğurduğu baxışlar olurdu. Yaşadığı mühitdəki eybəcərliklərə ustadın münasibətinin çox kəskin ahəngi, yığcam dili var idi.

Bizcə, çox doğru mülahizədir: sirlər xəzinəsi olan dünyamızda poeziyaya qida, şair təbinə ilham verə bilməyəcək bir damla belə tapmaq həvəsinə düşmək boş zəhmətdən başqa ayrı məhsul verməzdi. Məsələ şair müşahidəsinin itiliyindən, gerçək aləmi qiymətləndirmək qabiliyyətindən asılıdır.

Nə demək olar. Bizdə bu intibahı, bu rəyi doğuran ustad Həmid Nitqinin mütaliə etdiyimiz qələm məhsulları oldu. Bu fikri onun əksər şeirləri barədə irəli sürmək heç də xüsusi risq və cəsarət tələb etmir. Fikrimizi konkretləşdirmək üçün şairin "Sual" adlı şeri ilə ünsiyyətə girmək istəyərdik. Əhvalat şairin sorğuları ilə başlayır: görəsən, bu yarpaq hansı budaqdan qopub düşmüş? Gözləri üfüqə zillənmiş bu torpaq nəyin həsrətindədir? Əsən külək söyüdlərin saçını dararkən kimin həyatından söz açır?



Şübhəsiz, bu sorğular həyati müşahidələrin öz məntiqindən doğan suallardır. Həm də onları cavablandırmaq həlli mümkün olmayan bir məsələ deyil. Bu sorğular axınında şairin mənsub olduğu xalqın taleyilə bağlı olan bir sual da vardır.

Hansı qələm yazmışdır
Əlimdəki oxunmaz qara cildli kitabı,
Alnımdakı yazını?

Bizcə, şairin alın yazısının qara cildli kitabda yazılması oxucunu diksindirməməlidir. Hələ də həqiqi istiqlal yollarında amansız dalğalarla döyüşən gəmisinin qələbə sahilinə çatmayan, hələ də ana laylasını eşitdiyi dildə təhsil almağa həsrət qalan, millətinin imzasını imzalar içərisində görməyən (Məhəmməd Hadi) insanın taleyinin qara yazılması tarixi həqiqət deyilmi?

Şair lirik qəhrəmanının dili ilə irəli sürdüyü bu sorğu diri bir millətin əsrin ab-havasına, qurtuluş hayqırışlarına reaksiyasının əks-sədası deyilmi?

Sahillərin alnına
Dəlirmiş dalğaların
Çəkdiyi zolaq-zolaq
Bu cizgilər –
Nə demək?

Azərbaycanın xalq şairi Rəsul Rzanın dünyasını dəyişməsinə Həmid Nitqinin həsr etdiyi "Ağı" adlı şeri bizi bir sıra qlobal məsələlərin sorağına çəkib apardı.

Fəqət, şair addım basdığı bağçanın birdən-birə tar-mar olmasının siqləti onun çiyinlərinə ağırlıq edir. Qəfil əsən xəzan yeli onun əlindəki gülləri də soldurur.

Lakin şerin vəzni, çəkiyə sığmayan siqləti, zamanın özünə belə ağırlıq edən problemlərə həsr edilən misraları xalqının taleyinə şairin bəslədiyi sədaqətli övlad məhəbbətinin elçilərinə çevrilir. Bu parçalanma yanğısının hələ XIX əsrdən xalqın ən yaxşı övladlarının sinələrini oda yaxmış fəraqdan doğan ahların tüstüsü çıxmayan ev, ailə tapmaq çətindir.

Tərəddüd etmədən deyə bilərik ki, Həmid Nitqinin həmin mövzuya həsr etdiyi şeirlərində həqiqi bir Vətən məftununun ürək döyüntüləri, dərin düşüncə və fəlsəfi təfəkkür sahibinin poetik düşüncələrindən yoğrulmuş abidə ilə qarşılaşırıq.

Şair dərin təəssüf hissləri və ürək ağrısı ilə Rəsul Rzanı gec tapmasından kədərləndiyini bildirir. Əsil məqsəd isə bu gecikmənin səbəbini açıqlamaqda şairin irəli sürdüyü inkar tanımayan iddialarındadır:

Hayıf, hayıf!
Çox gec tapdım mən səni!
Bilirsən haçandandır,
Ara qapı bağlıdır –
Qapalıdır üfüqlər.

Həmid Nitqi ömrü boyu köksündə gəzdirdiyi vüsal həsrətini açıqlayır. İllər uzunu "bu taydan o taya baxmağa" izn verməyənləri, imkan yaratmayanları xalqın qurduğu ədalət məhkəməsinin kürsüsündə oturtdurmağı ən doğru yol hesab edir.

Həmid Nitqinin poetik düşüncələri ilə əlaqədar istihalənin (mənəvi dəyişiklik) yanından sükutla keçmək istəməzdik. Yaxşı məlumdur ki, bu qüdrətli şairin yaradıcılıq üslubunda sərbəst vəznə rəğbəti çox güclüdür. Özünün etiraf etdiyinə görə bu üslub onun istədiyi mövzuda, istədiyi ahənglə şeir yazmasına mane olmur. Lakin maraqlı burasıdır ki, o, özünün sırf lirik hisslərini, sənətdə milli axtarışlarını oxucu ilə bölüşdürməkdə, onunla daha səmimi ixtilat yaratmaqda Azərbaycan şeri üçün daha doğma olan heca vəzninə müraciət edir.

Müəllif "Yas" adlı şerində özünün bir növ kədər mahiyyəti daşıyan hisslərini oxucuları ilə bölüşdürmək istəyir. Çox intim və kövrək mahiyyətə malik olan bu mövzudan şair məhz heca vəzninin qoşma formasında söhbət açır. Özü də istədiyini kamil şəkildə, sona qədər açıqladığına inanır. Şeirlə tanışlıq onun haqlı olduğuna azacıq belə şübhə yeri qoymur:

Uzaqlarda qaldı yorğun gözlərim,
Burada dərdimi anlayan yoxdur.
Yenə də baxmada hər an gözlərim,
Gərçi bu çıxmazdan qurtuluş yoxdur.



Şairin okean tutumlu köksündə Vətəninə, xalqına, milli mədəniyyətinə olan məhəbbətini coşdurmaq üçün illərdən bəri çayxananın divarından asılaraq toz basan, unudulan sazın bir nəfəslik nəğməsi də bəs edir. Söz sərrafının xalq arasında siqləti çəkiyə gəlməyən məhəbbət qazanmış Koroğlu, Qaçaq Nəbi kimi qəhrəmanlara bəslədiyi sevginin misralarının zərif küləklərinə çata bilmək qabiliyyəti oxucuda ona olan rəğbəti qat-qat artırır.

Məhdudiyyət qoymaq istəməzdik. Güneyin bütün şairləri kimi Həmid Nitqi də qocaman Təbrizi Vətən torpağının düşünən beyni, vuran qəlbi, tarix boyu onun çiyinlərinə şöhrət çələngi hədiyyə edən ulu bir bahadır hesab edir. Görünür, bir başlıq altında qatar çəkib dayanan misralarda bu əzəmətli şəhərin bütün gözəlliklərini tərənnüm etmək üçün şair "Köçmüş karvanlar" əsərinin "Təbriz" bölməsində onun yalnız təbii gözəlliklərindən söz açmaqla kifayətlənmək istəmişdir. Onun tərənnümündə Təbriz yaşa dolduqca cavanlaşan, cavanlaşdıqca güllər, çiçəklər diyarına çevrilən bir məkandır:

Budur,
Nazlı-nazlı durur önümdə –
Canlı, cavan, təzə, şən,
Qızıl dağlar ətəyinə söykənən,
Gəlin kimi al ipəkli Təbrizim.

Həmid Nitqinin dünya azərbaycanlılarının özləri üçün Kəbeyi-amal hesab etdikləri Bakıya olan məhəbbəti ilə Təbrizə bəslədiyi doğma münasibəti yan-yana qoyula bilər. Uzun illərdən sonra Bakı ilə, Xəzərin bu füsunkar yavrusu ilə görüşü onun köksündə olan övlad məhəbbətini, sözün əsil mənasında, təlatümə gətirir. O, bu görüşü özü üçün yeni doğuş hesab edir. Bu od ürəkli şəhərin simasında özünü, sözünü, dilini, tapdığına sevinir. Lakin bu da hamısı deyil. O, bu görüşün simasında yenidən anasını, elini, obasını, yuvasını ziyarət üçün dönməsindən söz açır. Belə bir əhval-ruhiyyə ilə qədəhini Bakının üfüqlərindəki şəfəqlərdən doldurmasına ilahi bir ziyarətin doğuracağı ərməğan kimi baxır. Bu nur çeşməsinin səxavətilə uzun illik fərağdan doğan həsrət və kədərini əritməsindən sevinir:

Ağaran təzə bir səhərin
Sehrinə tutulduq və qaldıq...
Fəcr ilə doldurduq qədəhlərimizi.

Könüllərimizdə cücərən ümidi
Tapşırdıq kədərlərimizə
Və qara gecənin ən son dəmlərində
Röyalarla dolu bir dərin baxışda
Əritdik kədərlərimizi.

Sevgi, məhəbbət hisslərinə, bu bəşəri nemətin tərənnümünə biganə qalan həqiqi poetik istedad təsəvvür etmək çətindir. Hər bir qələm sahibinin bu mövzuya həsr etdiyi əsəri özünün daşını, kərpicini, suyunu, rahiyəsini, rəng və boyasını məhz şairin onun poetik aləmindən, həyatda qazandığı təcrübəsindən alır.

Şair həyat yollarının dağlardan, aşırımlardan, ayazlı, şaxtalı gecələrdən keçməsindən və bütün bunların onun irəli şütüyən həyat qatarının yolunu kəsə bilməyəcəyindən fərəhlə danışır. O, bu çiskinli-dumanlı keçidlərdə azmamaq üçün ulduzlarla, səyyarələrlə dil tapa bilməsinə, anasının əzbərlətdiyi, fəqət unutduğu, çətin anlarda yada saldığı dualara minnətdar olduğunu bildirir. Və bu çətinliklər onu sorağına düşdüyü uşaqlıq çağları iştiyağından döndərə bilmir. Bu məsud aləmin ilkin təzahürləri isə bunlardır:

Hanı gözləri parıldayan,
Sapsarı telləri yellərdə sovrulan,
Yerə-göyə sığışmayan,
Gülən, güldürən, ağlayan
O şeytan uşaqlıq –
Mənim uşaqlığım?

Yaşından, cinsindən, milliyyətindən, dini mənsubiyyətindən asılı olmayaraq müqəddəs bir amala şairin pak münasibəti onu oxucularına sevdirən çox kövrək, zərif, fəqət, ürəklərə yol tapmağa qadir olan bir mahnıdır.

Böyük rus tənqidçisi V.Q.Belinskinin öz sənət gəmisində bizim günlərin sevgi okeanının sahillərinə qədər gəlib çıxmış belə bir qənaəti vardır: bütün valideynlər sevgi və məhəbbət aləmində buraxdıqları yanlışlıqları övladlarının təkrar etməmələrini arzulamışlar. Lakin bu, elə bir istək olaraq qalmışdır. Çünki insanlığın hər nəslinin öz aləmi, öz istəyi, öz sevgisi olur.



Bizcə, sevgi, məhəbbət hisslərinə, bu bəşəri nemətin tərənnümünə biganə qalan həqiqi poetik istedad təsəvvür etmək çətindir. Bu iddianın çox qabarıq nümunələrinə Həmid Nitqinin sənət cəbbəxanasında da rast gəlirik. O, həmin mövzunun təqdim və tərənnümündə məhz özüdür. Bu meydanda öz səsi, öz nəfəsi, öz səliqəsi vardır. Hətta, min bir tellə bağlı olduğu, özünə ustad hesab etdiyi Mirzətoği xan Rüfət, Həbib Sahir kimi sənətkarların qələmlərinə mənsub olan intim şeirlərdə yaşanan poetik intonasiya, təsvir və tərənnüm ahəngi, lirik axın və təzahür baxımından fərqlidir. Yəni əslində məhz Həmid Nitqinin köksündə həmin mövzuya köklənən rübabın nəğməsidir.

Biz bu mülahizələrimizi poetik təsdiq üçün ustadın neçə illər bundan qabaq qələmə aldığı "Sevda" adlı şerində bol poetik material tapdıq. Bu özünəməxsusluğun bir motivi şairin heç bir misrasında birbaşa sevgilisinə müraciət edərək "Səni sevirəm", "Məni tərk etmə", "Gecələri yuxusuz qoyma" şəklində müraciətinə rast gəlmədik. O, sevgilisini çox çəkili sorğular ətrafında, necə deyərlər, müsahibəyə dəvət edir. Həm də maraqlı burasıdır ki, oxucu sanki sevgilisindən qabaq şairin sorğularına cavab verərək deyir: – Bəli, bu əsil sevgidir!

Şairin tərənnümündə daha ürəyəyatımlı poetik nüanslar az deyil:

Gözlərinin dənizində,
Yelkənlər açıb getdiyim...
Saçlarının gecəsində,
Röyalar qurub yatdığım,
Qəhrini lütf, zəhrini qənd
Adlandırıb,
Öz-özümü aldatdığım
Sevgi deyil, bəs nədir?

Şairin "Qızıl alma", "Fal", "Sən", "Əllərində ulduzlar" kimi sevgi və məhəbbət mövzusunda yazdığı şeirlərində də bu hisslər çox səmimi notlarla poetik tərənnümlərini tapırlar. Bəşərin həyat yoldaşı olan poeziyanın nə zaman və harada ilk addımlarını atdığını demək çətin olduğu kimi onun öz səfərini harada və nə vaxt başa çatdıracağı barədə peyğəmbərlik etməyi də sağlam düşüncə məqbul hesab etmir. Ustadın "Seçilmiş şeirləri" kitabına yazdığımız bu müqəddimənin sonu görünməyən bir həddə qədər davam etdirmək olardı. Fəqət, biz daha məqsədəuyğun bir yol seçdik.

Həmid Nitqinin 1996-cı ildə Ankarada nəşr edilən "Hər rəngdən, dünəndən bu günə" adlı şeirlər toplusuna məşhur türkiyəli alim, professor, doktor Yavuz Akpınarın yazdığı "Həmid Nitqi Aytanın həyatı və əsərləri" adlı çox səmimi, əhatəli və dəyərli müqəddimədə oxuyuruq:

"Həmid Nitqinin şeirləri Güney Azərbaycan türk ədəbiyyatının üfüqlərinin Türkiyəyə, Quzey Azərbaycana, Avropaya qədər genişləndirən bir dərin mədəniyyətə, müasir insanın qayğılarına, inkişaf etmiş bir şeir dilinə, duyğu yüklü, sehirləyici bir təsirə malikdir. Biz bu şeirlərdə çağdaş Türk poeziyasının gəlib çatdığı mərhələni görürük".

İnanırıq ki, məşhur şair, görkəmli dilçi alim, tanınmış türkoloq, məharətli tərcüməçi, ustad pedaqoq olmuş Həmid Nitqi qoyub getdiyi zəngin elmi, ədəbi, poetik irsin simasında gələcək nəsillərin müasiri olmaq hüququnu qoruyub saxlayacaqdır.

***Sabir Nəbioğlu***



# ŞEİRLƏR

## GÜMÜŞ XALXAL

Ayağında gümüş xalxal,
Çiynində qıpqırmızı şal.

Göydə
Göz qırpır ulduzlar.

Ay
İşığın
Yarpaqlardan yerə süzür,
Xurmalıq mehtabda üzür.

Qayalıqlardan qucaq-qucaq
Sahillərə –
Daşır
Qızlar.

Qərib vəhşi nəğmələrin
Diliylə danışır gecə
Birgə ağlaşan sazların
Fəryadıyla
Coşur gecə.

Gecə rəngində bir gözəl,
Mehtaba qarşı oynayır –
Ayağında
Gümüş xalxal
Ahəngi ilə
Ürəkləri ovsunlayır.

Qollarını
Qanad kimi gərmiş,
Çılğın zorblərin əmri ilə
Gedir,
Durur,
Dönür...
Oynadıqca bütün gözlərdə dəyişir.
Hər addımda gözəlləşir –
Sərxoş edən nəşəylə.

Hamı qəlblər dolub daşır,
Xalxalı qız
İlahiləşir.

*Abadan, 1948*

## HƏR RƏNGDƏN

Demə,
Demə
Güllərin
Hamısı bir.

Hər rəngin
Dəyişik bir ətri var.

Arzunun dörd yönündən
Əsən
Sərin yel, hər külək
Başqa bir dil danışar.

Gözləyir
Aşiqlərin
Yolunu
Sıx kölgəli ormanlarda
İlk bahar.



## YAS

Saplandı qəlbimə xəncəri yasın,
Ömrümün baharı xəzana döndü.
Ey əski yoldaşım, nəşəm, hardasan?
Könlümdə ümidin ateşi söndü.

Aldandım, gördüyüm məgər sərabmış!
Ruhumu bir çürük ipə bağladım.
Anladım gerçəkdən halım xarabmış,
Bu xarab halıma candan ağladım.

Kimsədə günah yox, hamı suç mənim,
Mənim əsərimdir bu qara matəm...
Dərdlərin diyarı oldu məskənim,
Bu dərdə bir çarə olurmu bilməm?

Uzaqlarda qaldı yorğun gözlərim,
Burada dərdimi anlayan yoxdur.
Yenə də bıqmadan hər an gözlərəm,
Gərçi bu çıxmazdan qurtuluş yoxdur...

*5 iyun, 1948*

## GECƏ YARISI VAĞZAL

Dirəyə asılmış
Solğun, işıqsız,
Lüt, çırıl-çılpaq,
Ölü gözü kimi baxan bu çıraq
İslanmış gecənin üstünə vurur.
Qaranlıq sapsarı pas rəngi alır,
İncə-incə, narın durmadan yağan
Yağmurun torunda qısılır qalır.

Çıraq dibində
İşçi paltarlı,
Sakin,
Vüqarlı,
Qərib bir insan
Daşdan yonulmuş
Bir heykəl kimi
Əli cibində, kiprik çalmadan
Yağışda durmuş.

Qara şapqalı,
Ağ saqqal biri
İslaq nimkətə
Söykənib qalmış,
Son çarə kimi yağmurluğuna
Bərk-bərk sarılmış
Qalın gözlüklü yorğun gözlərin
İnadla yummuş,
Gecədən, sisdən vağzaldan uzaq,
Ucsuz-bucaqsız xəyala dalmış,
Bəlkə də itmiş-batmış günlərin,
Nisgillərin içinə cummuş.

Bir sərxoş gəlir,
Bu divar mənim, o divar sənin



Uzaqda duran sınaq nimkətə
Düşüb-qalxaraq,
Min bir zəhmətlə çıxmaq istəyir.

Bir az ötədə var-gəl eləyən
Uniformalı,
Sısqa, qupquru,
Gömrük məmuru
Yaman öskürür.

Dumanda itmiş,
Bəlli-bəlirsiz,
Minarələr də
Ayaqda yatmış.

Ağır qurğuşun
Qoca gümbəzlər
Çəndə çöməlmiş,
Ağlayan gecəyə qulaq qabartmış.

Birdən gecikmiş
Son qatar səsi zülməti yarır,
Nəhayət, tren
Xəyalət kimi
İslaq raylarda sürünə-sürünə
Vağzala girir;
Tövşüyə-tövşüyə bir az dincəlir,
Vağzal dirçəlir,
Daş-heykəl adam
Öskürən məmur,
Şapqalı yolçu
Ona yönəlir,
Qatar silkələnir,
Nəfəs-nəfəsə yenə qaranlıq
Sis və gecənin
İçində ərir...

Gedənlər gedir, səslər kəsilir,
İşıqsız çıraq,
Xəbərsiz sərxoş,
Sis kimi yağış.
Yağış kimi sis altında qalır.
Vağzal gərnəşir,
Sonra büzülür,
Ulduzsuz gecənin
Qoynuna girir,
Yuxuya dalır.

*İstanbul, 1948*

## XATİRƏLƏR

*1940-cı illər, İstanbul*

Uçdu yenə dağların ardına könül quşu:
Dırmandım qoşar kimi mazi denən yoxuşu.
Gözlərim daldı yenə o dadlı xülyalara.
Qanamağa başladı qəlbimdə əski yara.
Xəyalımda canlandı o sehirlər bəldəsi.
Eşitdim mən də bu gün "Kamal"ı marsan "səs"i.

Boğaz indi orada yaşıl gözünü qırpır,
Uzaqlardan adalar gəl mənə sarıl deyir...
Martılar dalğalarla habirə oynaşır...
Sahillərdən dənizə min bir şərqi daşıyır...
Tramvaylar, qayıqlar, təknəciklər, vapurlar...
Minarələr, çeşmələr, təndlər, kəmərlər, surlar...

Bəyazıdın o munis cana yaxın meydanı,
Yanında parkcığıyla camidə şadirvanı,
Təkrar-təkrar altından keçdiyim böyük qapı,
Universitet, bizim o ağır əski yapı
Bitməz tamirafiylə sonsuz boş koridorlar...



"Müəmmər Rəşid Sevik" və "Siddiq Sami Onar"
"Professor Croat", "Hüseyn Nail", "Belgesay"
"Əli Fuad", "Shvartz", "Tanər", "Samim gönensay"
Fakültenin önündə "Ulus" qezetesi satan
Bağçadakı fotosu, yeni açmış restoran
Sonra meydan və sonra yanda "Qapalı Duraq".
"Qapalı Duraq"... əvət karşı yola dalaraq.
Saatlarca ümidlə bəklədiyim o yer, ah!
Və sonra... ilk nəzərdə upuzun zövqün məşhəri
Corab, əsans, əldivən, gömlək, başörtüləri...
Şapka satan "Tahirə"... ötədə yorğançılar
Əziş-büzüş tablolar, sonra solda bir az dar.
Quyumçular bazarı, sağ-sol hər yanda altun,
Hər tərəf pırıl-pırıl, hər şey çınlayır sin-sin.
Sonra bir az ötədə açılan Mahmud paşa,
Bir bayram günü kimi süslənmiş başdan-başa.
Qadınların həsrətlə baxıb keçdiyi mallar,
Və qızlara atılan sıradan martavallar,
Simitçinin yorulmaq bilməyən o zil səsi,
İnsanların qarışıq qələbəlik kütləsi,
"Yıldızxanı" yanında daim axan musluqlar,
"Haləbşi kabaçı", basma satan ixtiyar,
Sonra Sultan hamamı... Əminönü meydanı
Qəzetəçi səsləri, vapurların dumanı...
Baş üstündə parlayan İstanbulun, o eşi
Bulunmayan, üfüqdən gülümsəyən günəşi...
"Nemət abla Guşəsi"... sonra Balıq bazarı.
Qarşıda zaman-zaman mor, mavi, yaşıl, sarı,
Minlərcə cilvələrlə parıldayan Mərmərə.
Körpü, Halıc, Qaraköy, Bankalar iştə Pera.
Gözəlliklər, gözəllər... evlər, apartmanlar...
Hər tərəf "əfəndilər", kübar "baylar", "bayanlar"
Muhalləbçilərin dolub-daşan salonu
Sonsuz lafa dalaraq bəklənən "seans"sonu.
Rum, Fransız, İngilis, Alman, Bolqar
İspanyol və sairə dillərdə qonuşmalar.

Sevişmələr, öpüşlər, ağlaşmalar, gülüşlər,
Açılıb sərpilişlər, qıvrılıb
"Orman", "Atlantik", "Xətay",
"Baylan", "Löbon" və "Markiz"
Digər pastanələr, dolub-daşan bir dəniz,
Sonra saysız hədsiz sinema, həp sinema,
Bəyaz pərdəyə dalan sevgililər yan-yana...
Sonra Taksim və onun xatirələrlə dolu
Mərmərəyə götürən tənha və munis yolu.
O yol ki, şahiddir ən dadlı anılarıma,
Könül ağrılarıma, iç həyəcanlarıma...
Sonra yoxuş aşağı Dolmabağça... və derkən
Ulduz, o eşsiz Ulduz, gözəl, dadlı, şirin, şən...
Yaşıl pakitalardan həp bərabər enərdik,
Qonuşmadan yürürdük, əylənərək dinlərdik.
Dənizin eşqimizə bəstələr söylədiyi
O ləhzəyi yaşardıq kədərsizcə pək əmin.
Nəhayət, bir kanapc üstünə oturardıq,
Mərmərəyə dalaraq nə xülyalar qurardıq...
Uzaqdan bir plağın səsi bizə varırdı,
Bəzən bu səs gülərdi, bəzən də yalvarırdı,
O sanki eşqimizin kiçik hekayəsiydi,
O sanki qəlbimizin ruhumuzun səsiydi...

*Tehran, 1948*



## HƏSRƏT

Həsrət doludur könül –
Yaz həsrəti,
Gilas həsrəti.

Uzat dodaqlarını,
İçim qana-qana.

Dağıt saçlarını, –
O qızıl günəşdə
İsinmək istəyirəm.

Bu qış uzun sürdü.
Ulduzlar bizdən küsmüş,
Göy qapqara donuq,
Ay buz kimi soyuq...

Aç pəncərəni
Qulaq as,
Sanki havada qanad səsi var.

Rəbbim!
Yaxınlaşır bahar.

*1950*

## ÜRƏKDƏN SEVMƏDƏN...

Ürəkdən sevmədən şeri yazılmaz
Nə gülün,
Nə günün,
Nə ayın, ulduzun,
Nə gözəl bir qızın.

Sözlər olar,
Fikir olar,
Fəqət şeir olmaz,
Çırpınan ürəklə yazmasa əlin.

*Tehran, 1950*

## DUMANLAR ÖLKƏSİ

Yolum düşdü mənim də
Tikanlı, dəmir telli
Dumanlar ölkəsinə.
Bir zaman orda qaldım
Qonaqladım.

Nədənsə izin verdilər,
Üç-dörd yer göstərdilər;
Gəzdirdilər –
Sıra-sıra
Abidələr, binalar,
Silah fabrikləri,
Sərbazxanalar.

Hər tərəfdə baş zorbanın heykəli,
Təcəssümün



Gözü,
Qulağı,
Əli.
Yumruqla bilərlər
İgidliyi, mərdliyi.
"Xəbərdar!"larında:
Ölüm sərtliyi
Səflərində?
Taxma diş intizamı
Həyatlarında:
Qarışqa nizamı.

Düşünənə
Xain kimi baxarlar,
Bayramlarda kitabları yaxarlar.

Küçələrdə
On addımda bir əsgər,
Ehtiyatla tək-tük gəlib gedənlər
Sərxoş kimi
Adamlar yalpalalar
"Robot"lar mərkəzdən əmr alarlar.

Söhbətləri
Sudandır,
Havadandır.
Dedikləri başdan-başa
Yalandır.
Yalan həqiqətin yerinə keçər,
Həqiqətlər zindanlarda can çəkər.

*1951*

## NƏ SÖYLƏRSƏN MƏNƏ XOŞDUR

Seyr edirəm nəşə dolu
Sevgi saçan sözlərini.

İçirəm bal dodağından
Axan şirin sözlərini.

Səsin qulağıma gəlir
Ürəyimdə əks eyləyir.

Barmağın
Sanki könlümdə
Can deyilən telə dəyir.

Sözlərinin mənasından
Daha artıq,
Könlümə ahəngi yatır.

Anlamıram nə deyirsən,
Ancaq səsin mənə çatır.

Nə söyləsən mənə xoşdur,
Düşünmə heç onu-bunu?

İçimi doldurub həsrət,
Sevgi sarıb vücudumu...

*1952*



## BİR YAY GÜNÜ İKİNDİSİNDƏ

Daşların qumlu fasiləsindən
Pöhrə vermişdi xırçın alaqlar.
Yay ikindisi hənirtisiylə
Saralmış, susuz,
Ətli və tüklü qalın yarpaqlar –
Ölgün və dalğın.
Uzaq yolların tozu ayaqda,
Unudulmuş mahnılar dodaqda
Açılan qapıdan içəri daldı.
İnsiyaqların anlaşılmayan vəsvəsəsiylə
Keçmişlə gələcəyi ayıran sədlər yarıldı.
Onlar artıq qayıdılmaz yollara girdilər.
Yay istisinin başgicəldən tərli tilsimi,
Əvvəli utancaq başlanan söhbət
Və gözlənilmədən ikili xəlvət.
Söz bir inadçı küheylan kimi,
Dərədən axan, çağlayan kimi,
Özü bildiyi cığır girdi,
Gizlin istəkləri dilə gətirdi.
Tut ağacının çətri altında,
Yad baxışlardan
Əmin və iraq
Heç qorxmadan,
Yaxlaşdılar.
Başları üstündə tut ağacında
Birdən-birə bir quş havalanınca,
"Kupidon"un əlləri nədənsə titrədi,
Atdığı ox nişana dəymədi.
Onlar da çaşqın
Qorxu içində uzaqlaşdılar.
Ovsun pozuldu,
Dillər bağlandı,
İstəklər söndü.
Onlar da

Yayın hənirtisiylə
Saralmış, solmuş yarpaqar kimi,
Ölgün və dolğun,
Könüllər darğın,
İstəksizcə azacıq danışdılar.
Vidalaşdılar.

*1957*

## ÖLKƏMİN YOLLARINDA

Uca dağın köksünə söykənmiş yıxıq bir dam,
Yanında seyrək, cansız, kölgəli bir-iki şam.

Kiçik sınıq pəncərə göz dikmiş tozlu yola,
Yolçu izini arar, baxarıq sağa-sola...

Axşam bütün hüznüylə çökərkən qarşı dağdan,
Qəhvənin qabağında dayandı bizim karvan.

Qürbət bir incə sisdi dağılmışdı havaya,
Yaslı bir hal vermişdi çölə, dağa, obaya.

Bərabərcə içəri girdik biz müsaffər,
İki yaşlıca adam "xoş gəldiniz" dedilər.

Dövrəsində oturduq tüstülü bir lampanın,
Mən də seyrinə daldım külbəciyin dörd yanın.

Divarlarda illərin hisli izləri vardı,
Düşündükcə qəlbimi bir hicran hissi sardı.

Kim bilir nələr görmüş dedim bu alçaq damlar,
Nə simalar tanımış bu kirli qara camlar.

Divarda duran bu saz nələr anlatmaz, nələr,
Kim salıb, kim söyləmiş hicranlı təranələr...



Bir az sonra başladı dayanmayan samavar,
Məclisimiz qızışdı, bir-bir düzüldü çaylar.

"Bu saz kimindir" deyə söhbətə başladılar,
"O mənim dərddaşımdır" söylədi bir ixtiyar.

Haydı bir mahnı oxu, haydı dilləndir onu,
Könülləri şənləndir, gəlsin qəmlərin sonu.

Ah çəkərək bir baxdı divardakı sazına,
Sonra aldı əlinə başladi avazına.
(Avazında əks etdi dağların dastanları)

Koroğlunun iziylə addım-addım gedənlər
Qaranlığa, qorxuya, zülmə üsyan edənlər.

Qaçaq Nəbisayağı dağda od yandıranlar,
Xalqımın pis günündə qayğısına qalanlar...

Dar sərgisi qəhvənin açıldı xəyalımda,
Bir gizlin sevinc duydum o pərişan halımda.

Qurtuldum boğazımı sıxan pəncədən bir an,
Dan ulduzu görsəndi gecənin arxasından...

*Abadan, 1957*

## İSTANBULDA "BİT BAZARI"

"Bəyazitlə" "Qapalı çarşı" arasında,
"Sahhatların" arxasında,
İştə şanlı "Bit bazarı".

Bir bayram günü
Bayraqlarla bəzənmiş dörd bir yanı;

Səs-küylə çalxalanır zəminü-zaman,
Çığıran çığırana,
Bağıran bağırana.

Təşhir edilmişdir
Ağıla gəlməyən hadaran-padaran,
Sınıq bir projektorla
Əsrimizə addım atıb "Bit bazarı"
Yanında bir gəlin paltarı.

Budur "Fatehli Cəfər"in
Bir əski paşa köşkündən
"Aşırdığı" sınıq "Raqı" taxımı,
"Pəltək Qurban"ın paslı Singer maşını,
İllərcə vərəmdən yatdığı,
Sonra mirasçılarının satdığı
Köhnə yorğan,
Bürünc dəmir, mis...
Tənəkə manqal,
Dibi dəlik qazan,
Təkqollu maşa,
Sacayağı,
Gün görmüş qocaman masa,
Ləkə, yamaq, pas...
Moddan düşmüş cürbəcür mallar...

Yağışda islanan kül rəngli hava,
Gələnlər...
Gedənlər...
Alanlar...
Satanlar...
Qələbəlik, şuluqluq, basabas...
Qəribə bir bazar!

*İstanbul, 1957*



## HANI?

Yeddi dəryaları arxamda buraxdım,
İndi qürbət sahillərində
Qumdan
Saraylar saldırıram.

Hələ yelkənləri endirmədimsə,
O, durmadan qulaqlarımda çınlayan,
Uşaqlıq qəhqəhələrimin israrındadır.

Səfər çox uzun sürdü,
Qayalıqlarda dizlərim yoruldu.

Başım üstə qanad açmış qatar-qatar
Quşların səslərindəki gizlin ixtar.
Dağların dalısındakı div buludlar,

Dumanlardakı əsrar,
Ormanların yaşıl ürpərməsi
Və zaman dəyirmanının qıcırtıyla dönməsi,
Az qala məni yoldan saxlayacaqdı.

Ulduzlardan soraq almasaydım
Anamın əzbərlətdiyi
Və mənim unutduğum
Duaları
Yadıma salmasaydım.

O sehrli bağçada
Bir alma ağacının budağından
Sallanan,
Alov-alov yanan
Qızıl alma,
Harada?

Axtardım boş yerə gecə-gündüz,
Əlimdə dəmirdən əsa,
Ayağımda dəmirdən çarıq
Aşdım dağ, dərə, düz...
Hanı gözləri parıldayan,
Sapsarı telləri yellərdə sovrulan
Yerə-göyə sığışmayan
O şeytan uşaq –
Mənim uşaqlığım?..

*Tehran, fevral, 1960*

## QIZIL ALMA

Yüz illərin ötəsindən
Sənlə könül arasında,
Pıçıldaşır bir macəra:
Heyif sənlə görüşmədik,
Tanışmadıq,
Danışmadıq.

Nəysə, səni bir möcüzə
Daha gözəl bir zamanda
Tarixin bir döngəsində
Qabağıma çıxarırsa,
Tutacağam əllərindən,
Belini bərk saracağam,
Ovun çalmış qartal kimi
Yuvama aparacağam.
Bir də səni caynağımdan
Heç bir qüdrət ala bilməz.
Oğru fələk neyləsə də
Səni məndən çala bilməz!

*1962*



## ŞİRAZ

Dünən gecə,
Ulduzların süfrəsində,
Röyamın saqisi idin.

"Hafız"dən qəzəl dolu
Bir qədəh sundun mənə.
Köhnə qəzəl işlədi
Əsəbimə, qanıma,
Odlar saçdı canıma,
Xırman-xırman duyğular
Dörd rüzgara sovruldu...

Əsən külək
Ətirli nəfəsinlə dolmuşdu.
Bütün gözlərdə sevda rəngləri
Parıldardı.

Dodağıma dəyincə
Hər söz şeirləşərdi;
Duyğulu, gözəl, incə...

Unut "Persopolis"i
Dön, sərxoş Şiraza bax!
Qədəhləri qəzəllə doldur, daşırt
Bu gecə
Həmasələri burax.

*Şiraz, 1967*

## QARA QUŞ

Şaxta basdı, yay bitdi,
Nəşə qaçdı, keyf itdi,
Hamı gözəllər getdi,
Könüllər yetim qaldı.

Bağçada güllər soldu,
Yarpaqlar xəzəl oldu,
Günün rəngi saraldı.

Çiçəklər getdi yelə,
Quşlar köçdü yad elə,
Açıldıqca fasilə,
Fürsətimiz daraldı...

Qalmadı bağdan əsər,
Əməklər oldu hədər,
Söndü bir-bir ümidlər,
Ürəyimiz qaraldı.

Yağı bitdi çırağın,
Səsi batdı bulağın,
Güvəndiyimiz dağın
Yollarını qar aldı...

*Tehran, 1973*



## OVSUN

Məni ovsunladılar,
Dilimi bağladılar.
Qaçdımsa yetişdilər,
Nə əkdimsə biçdilər.

Əmək mənim bar əlim
Yadlar mənim yar əlim.
Utandım öz-özümdən
Sazımdan və sözümdən
Ayrılalı əslimdən,
Öksüz
Və köksüz qaldım.

Öz qanadımla uçan,
Atlanıb dağlar aşan
Mən,
Yerlərdə süründüm,
Qaranlığa büründüm,
Bataqlıqlara gömüldüm,
Yaşayammadan öldüm.

Məni ovsunladılar
Dilimi bağladılar.
Açılmaz isə dilim
Kim biləcək mən kimim?

*Tehran, 1351 (1973)*

## ŞEYX MƏHƏMMƏD

Səninlə
Bir kitablıqda görüşdük,
Göz yaşlarınla tanışdıq,
Və ikimiz də bir gözəllə sevişdik.
Sənin gözlərin yumulanda
Mən gözlərimi açdım:
Hər yan dumandı, sisdi, tüstüydü,
Yanğın külləri hələ istiydi.
Şəhərimdən
Bütün mavi quşlar uçmuşdu
Eynalı utancınan qıpqızıl
Tərlan suyu susmuşdu,
Hər yer boşdu,
Hər şey heçdi, puçdu.
Yetim buraxdığın dünyanın
Ağır havasında
Bitməyən yasında
Böyüdüm, boy atdım.
Günlərimə gecələr hökm etdi
Bütün mövsümlər
Eyni xəzan hüznüylə
Başlayıb bitdi.
Lakin sən
Röyalarımı xəyalınla doldurdun.
Gözümdə nur,
Dizimdə zor,
Ürəyimdə qürur
Oldun.
Amma nə üçün
Vəd etdiyin
Saat çalmadı?
Nədən əkdiyin ağac
Qol-budaq salmadı,
Yaralar sağalmadı?



Və sağalmaz mənim də qanayan yaram,
Dağ başlarını duman aldıqca,
Bayatılarım sinəmdə qaldıqca,
Mənə öyüd ver, ey ulu kölgə.
Gülləri solduran yelə neyləyim,
Səsini itirən elə nə deyim?

*Tehran, 1353 (1974)*

## BİR İLDÖNÜMÜ

Üç yüz altmış beş dəfə
Paltar çıxardıq geydik.
Yenə bir dövrü keçdik,
Yenə bir il əskildik.

Lakin hələ ağzımızda
Arzu, əməl əmziyi
Hənuz gözləməkdəyəm,
Heç bəlli deyil nəyi.

Eləcə cavabsızdır
Boş ümidin duası.
Günlərdir, gəlib keçir
Bir-birinin kopyası.

Qış bitdi, bahar gəldi,
Yay da onu izlədi.
Bir nəfəs çəkəm dedim,
Hər tərəf payızladı.

İndi qarşımda durur,
Min doqquz yüz yetmiş beş.
Şükür sönməyib hələ
İçimdə yanan atəş!

## SƏHƏRƏ ÇIXAN BİR YOL VAR

Baxışın dağlara sarı dalmasın,
Gözlərin heç uzaqlarda qalmasın,
Səslənmə,
Nə çıxar?
Qulaqlar sağır,
Vicdanlar paslanmış,
Yuxular ağır...

Dibsiz bir quyudur qaranlıq gecə,
Damcılar ürəyə qorxu gizlicə.
Ocaqlar yıxılmış,
Odlar küllənmiş,
Sevdalı başlara torpaq ələnmiş.

Yalvarman-yaxarman hədərə gedər,
Çağırsan,
Boşluqda
Səsin əks edər.
Bu duman
Tutmuşkən dağlar başını,
Fayda yox töksən də sən göz yaşını.

Deyirlər
Qaradır alnında yazın,
Səs verməz,
Sınıqdır əlində sazın.
Kütlənmiş qılıcın
Kəsməz –
Qındadır,
Qatilin pəncəsi boğazındadır.

İllərdir boynunda zəncir daşırsan,
Yurdunda sürgünsən,
Gedib yaşarsan...



Kimsədən səs çıxmaz
Gəbərsək də biz.
İtərik
Çıxmazsa bir yola
Bu iz.

Sən yeri,
Mənzilin uzaq ya yaxın
Dişin sıx!
Özünü itirmə sakın.

Dərdinin dərmanın umma kimsədən,
Kimsəmiz yoxdur ki,
Bir mənəm,
Bir sən.

Ölsək də, qalsaq da, budur yol ancaq,
Çıx yola,
Bəlkə bir mənzilə çataq.
Mən qalsam,
Davam et yolunda yoldaş,
Dayanma,
Yeri get bu dağları aş.

Bilirəm səhərə çıxan bir yol var,
Dizində güc varkən yorulma, axtar.

*Tehran, 1976*

## ƏQRƏB GECƏSİ

Bu əqrəb gecəsinin kor qaranlığında,
Qəribliyimi
Çıxmaz küçələrdə gəzdirirəm.
Qarabasan çökmüş evlər üstünə,
Matəm yağdırmaqdadır ölüm buludları.

Küçələr – qoruq,
Ağaclar – qorxaq,
Ağaclar – yalqız və yaslı;
Quşları çoxdandır dəvət etməz olmuşlar.
Ulduzlar da solmuşlar.
Baxışlar – tar,
Qulaqlar – kar.
Arxlar dolusu çirkablar axar.

Pərdələr arxasında gizlənmiş pəncərələr,
Üzlər aynalar dustağında
Sükuta sarılı fəryadlar.
Bulaq belə öz şırıltısından tədirgin.
Havada dalğa-dalğa dəhşət qasırğası.
Hamı rənglərdə – ayrılıq, ölüm qarası.

Addımlarım ağırlaşdı.
Ay köhnə bir qəbiristanın divarını aşdı.
Qapalı qapının qarşısında dayandım.
Yollar tükəndi sandım.
Sonra qalxızdım başımı,
Uzaqlara daldırdım baxışımı
O biri yanda –
Meydanda
"Enterə"nin qızıl işığında
Hər gün tutulan dəli bayramlarının
Həmhəməsi,
İbtizalın ulduzlu süfrəsi.



Bəridə səfalətin boş tası,
Boşluğun acı meyvəsi,
Düşüncənin ölüm yası.

Birdən elə bil eşitdim gecənin fəryadını.
Sanki göründü bataqlıqlarda çırpınan əllər, ayaqlar,
Ucalan və endirilən qanlı bayraqlar,
Divar da yazılıdır dedi görünməyən dodaqlar,
Bəlkə indicə "Şiva" rəqsi qalxar,
Əlamətlər zahir olar.
Səhərə kim ölər... Kim qalar...

Sonra bir-bir sünbüllər, ulduzlar
Və mən hər kəsdən uzaq,
Qəribliyimin səbəbini çiynimdə daşıyıram,
Uydurduğum nağıllara inanaraq yaşıyıram.

*Tehran, əqrəb bürcü, 1977*

## BAHAR VƏ İŞIQ

Yenə mən dost əlimi uzatdım ilk bahara,
Yenidən bağçamızda çiçəklər açsın deyə.

Bir röyanın ardında
Xəritəsiz yollarda gəzirəm heyran-heyran.

Axtarıram durmadan,
Qudurmuş dənizlərdə,
Qaranlığın qəlbində,
Qasırğanın gözündə
Sahillərdən bir işıq gözləyən,
Dalğalara qapılmış,
İtmiş qayıqçı kimi.

Qarlarda, boranlarda,
Özünü pəncərəyə vuran quşlar misalı...
Ölü ağaclar indi,
Birər-birər,
Lap təzə
Yamyaşıl yarpaqlarda
Yenidən dirildilər.

Bəlkə mən də bu yeni doğan günlə bərabər,
Açılıb güləcəyəm.
Dan yerinin səpsərin sunacağı qədəhdən
Doyunca içəcəyəm.

Bu səfər röyaların gerçəyin görəcəyəm,
Min rəngli diləklərdən çələnglər hörəcəyəm.

Gəl unudaq,
Hər səhər, hər axşam
Şərbət deyə içdiyimiz zəhəri,
Bu dumanlı illəri,
Bu qaranlıq qışları,
Bu boş aldanışları,
Sərabların şövqiylə xülya qurduğumuzu
Və sükut zindanının daşdan divarlarını...
Qoy quşlarla bərabər uçub da havalanaq,
Yalansa da aldanaq,
Xəyalsa da qoy danaq.

Kim bilir pəncərələr bəlkə işıqlanacaq,
Füzulinin dediyi "murad şəm"i yanacaq.

*Tehran, 1978*



## UNUTDUM

Sevda diyarının dolanbaclı yollarındaydıq,
Bizdən uzaq,
Hisli bir lampaydı sönən şəfəq.
Qulağımızın dibində
Axırdı gurultuyla çay və zaman...

Nədən qaranlıq gəlir mənə o aydın anlar?
Nə üçün dumanlarda ərimiş ən gözəl anılar?
Xəyalımda bir daha o yollardan
Nədənsə keçə bilmirəm,
Heç bir nəyi seçə bilmirəm.
Görəsən necə dırmaşdıq o sıldırım qayalara dəli-dəli,
Ki enişimiz bir şəlaləydi pərvasız və nəşəli
Şadraq kəpənəklərlə, vəhşi lalələrlə
Mahnılarda qanadlanırdı sərxoşluğumuz.

Axırda tüstülü qaranlıqlarda qalmışdı tasarlarımız,
Uzaqdıq zəncirlərimizdən,
Darısqal günlük işlərimizdən, evlərimizdən.
Üzümüzə gülürdü həyat.
Nəfəs çəkirdik
Könlümüzcə rahat-rahat...

Bu pərilər nağılının,
Nəydi ötəsi?
Necə unudula bilər hekayənin ən maraqlı nöqtəsi?

İndi
O unudulmuş bəstənin
Sınıq-salxaq, parça-tikə nəğmələri ovcumda...
Nə sata bilirəm,
Nə ata bilirəm.

*Tehran, may, 1978*

## ELİMİN QUCAĞINDA...

Artıq nə deyim?
Ölkəmdəyəm;
Öz yurdumda,
Anamın dizində,
Dədəmin ocağında,
Elimin qucağında,
Babalarımın izində.

Xatirəsiz qürbətlərdən evimə gəldim,
Əyləndim yurdumun dağlarında.
Salxım-salxım günəş içdim,
Qızıl-qızıl üzümlü bağlarında.

Hər söz bir dəftər oldu,
Dəftərlər sözlə doldu.
Qayalardan əks edən
Koroğlunun gur səsi
Səs verdi sözlərimə.
Ərənlərin nəfəsi
Gəlişimi uğurladı.

İndi
İtirdiyim
Əlimlə
Nəğmələrimi yazıram artıq ana dilimdə.

*Tehran, 1357 (1978)*



## ÇIXMAZ YOLLAR

Bu yollar mənə çox tanış görsənir,
Düşündükcə az-çox yadıma gəlir.

Ən daşda səpsərin bir çeşməcik var.
Yaz günü susayan gəlib-keçəni
Uzaqdan çağırar,
Orada göyərər sevgi çiçəyi,
Orada aşiqlər
Görüşür, sevişir, vədələşirlər.
Orada ürəklər birlikdə vurar,
Birlikdə söylənər eyni mahnılar,
Birlikdə görülər eyni röyalar.

Azacıq bəridə, daha irəlidə
Dörd yolun ağzında
Məqsədi diqqətlə seçməyən
Qafil yolçular
Çaşar.

Qarşıya çıxınca ayrılıq döngəsi,
Başlayar gileyliklər.
Ucalar yavaş-yavaş şikayətlərin səsi;
Dostlar dostlardan küsər,
Və yoldaşlıqlar bitər.
Xoş günlər unudular,
Dildə mahnılar susar,
Gülümsünmələr solar.
Bir az daha bu yolda davam edilsə
Artıq
Qardır, yağışdır,
Qışdır.
Boranlar kəsmiş yolu,
Bu keçilməz keçidin
Nə sağı var, nə solu.

Yolçular yorğun-arğın
Addımlar ağırlaşır.
Çox keçməz üfüqlərə
Qaranlıq çökər,
Nə ay, nə də bir ulduz...
Məsafələr qorxulu,
Hüdudsuz və ümidsiz yollar,
Kilkə düşmüş ipliklər,
Getdikcə gedər...

Ürəklərdə arzular,
Diləklərdə sönüncə,
Kabuslar hökm sürər,
İnsanlar çaşar qalar,
Sonra
Savaş,
Əsarət,
Ölüm ortaya girər.

Dan ulduzun axtaran
Səhəri gözləyənlər
Artıq ümüdin kəsər.
Talehlərindən küsüb
Çarəsiz uzanırlar,
Düşdükləri dustağın darısqal məzarına,
Vida edərlər artıq bütün anılarına.

Gəlin, dostlar,
Bu çıxmaz şum yollara bir daha,
Əsla ayaq basmayaraq
Rəngli xəritələrin
Yalan vədlərinə
Bir də qulaq asmayaq.

*Tehran, 1979*



## BU GÜNDƏN SABAHA...

Bir hörümçək torundan asılıydı zaman,
O gün də, hər gün kimi oxundu azan,
Təvəkküllə açıldı bir-iki dükan,
Kiçik qablarla ölçülürdü güzəran.
Havada üzərlik tüstüsü, miskinlik...
Səssizlik hər gurultuya üstündü.
Yeddi qat ulduzlu pərdələrlə
Örtülmüşdü çirkinlik.

Vaxt oldu saat çaldı,
Axan bir ulduz kimi
Bir çığlıq
Alaqaranlıq göy qübbəsini yara-yara,
Yerə doğru endi
Və ulduzlu günbəzin təpəsinə düşdü;
Çiban partlamışdı –
Qan və irin kimi
Nifrət və kin
Dağılırdı dörd yana.

Qalın altun çərçivəli aynaya
Əks etdi yepyekə rəngsiz bir kölgə
Tüstülərdə əridi gecənin kabusları.

Küllərdi
Şəfəqin gündüzə ərmoğanı
Və küllərdə ümid adlı səməndər doğulurdu.
Açılmışdı işığın dili,
Danışırdı xatirəsiz sevgili.

Bəlkə sonu gəlmişdi bunca qəhərlərin
Bəlkə qərqi başqaydı artıq doğacaq səhərlərin.

*Tehran, 1979*

## PETRONİUS

Sən
Qabalıq çirkabı
Neronun sarayında da
İncə zövqlə yaşama imkanını göstərdin.
Ədəbinlə, elminlə, tərbiyənlə tanındın.
Yırtıcılar içində mərhəmətli insandan.
Ancaq
Rəvayət budur:
Əcəl gəlib çatınca,
Adət üzrə sənin də
Xəyanətlə suçlanıb
Edamın gərəkincə,
"Özünü öldür!" – deyə Nerondan buyruq aldın;
Sən də baş əyməliydin bu amansız fərmana.
Qələm tutan, şeir yazan yaradıcı əlinlə
Biləyinin şahdamarını kəsdin,
Sonra diqqətlə erdın,
Və sevgili dostlarını çağırdın,
Mahnılarla şeirlərlə bərabər
Təzələndi keçmiş xoş xatirələr,
Ölümü də damcı-damcı dadaraq
İncə zövqlərlə süslənmiş həyatın
Möhtəşəm bir şəfəq misalı söndü.
Sən son ləhzələrində də gözəldin.
Görkəmli,
Ölməyi də,
Yaşamağı da
Bildin!

*Tehran, 1359 (1980)*



## ÜÇÜNCÜ DÜNYA VƏ ÇOXLUQ

Qaranlıq çoxalır,
Ac qarınlar törəyir,
Bərəkətli torpaqlar,
Barlı bağlar, bağçalar,
Doğurqan qadınlardan
Yarışda geri qalır,
Qaranlıqlar çoxalır.

Artır hər gün əllərdə,
Ovuclarda qabarlar,
Çoxumuz qışda, qarda,
Təkqat cındır geyirik.

Əllərimizdə ərir
Təndirdən çıxan çörək;
Doya bilmir qarınlar –
Qaranlıqlar çoxalır.

El, qış zumarı deyə
Toxumluqları yeyir...
Tünlükdə könüllər də
Xəfələnir, daralır –
Qaranlıqlar çoxalır.

Neyləyək,
Yollar uzaq,
Ayaqlarımız çılpaq,
Süfrələr boş
Və lakin,
Beşiklərimiz dolu,
Əzab gecəmiz uzun,
Ömür-günümüz qısa...

Az deyil –
Çox-çoxuq!
Dərdlərimiz də çoxdur.
Doğrusu, belə çoxluq,
Yoxsulluqdur,
Yoxluqdur.

*Tehran, 1981*

## "LALƏ"[1]

Yaydır artıq deyərdik,
Hamı yola düşərdik
Və "Lalə"yə gedərdik.

Səhər-səhər
Sərin günlə bərabər
Bitməz uzun yollarında
Keçərdik,
Lay divarlı bağlarına
Gedərdik.

Axan suyun nəşəsiylə,
Dəli könlüm daşardı.
Əsim-əsim yarpaqlarla
Coşan könlüm yaşıl-yaşıl yaşardı,
Göllərində yosunlar yoldaşımdı,
Çiçək-çiçək kəpənəklər
Ən yaxın sirdaşımdı.

Ağacların beşiyində uzanardım, yatardım,
Qırğıların qanadında buluda əl atardım.
Əlvan göyqurşağından üfüqə sürüşərdim,
Qıpqırmızı axşamın qucağına düşərdim.

[1] "Lalə" uşaqlığımda Təbrizə yaxın gəzinti yerlərindəndi



Röyaların sarayında
Otaq-otaq gəzərdim.
Sevincimi varaq-varaq dəftərimə yazardım...

İndi "Lalə"
Gölləriylə,
Gülləriylə
Keçmişlərdə qalıbdır.
Bağçaları
Dəftərimin yarpaqları misalı
Saralıbdır, solubdur.
Uşaqlığım çağındakı "Lalə" harda,
Bəs görəsən nə olubdur?

*Tehran, 1360 (1981)*

## BAHARA İNANMAQ

Dağ dalısında dayanmışdı qış,
Qısqandı
Yayın
Xəndan gül yarpaqlarının
Saralmış bənizinə
Son öpüşünü.

Gecəyə bərabər qış,
Ayaq dərə-dərə təpələri aşdı,
Qurdlar kimi yaxınlaşdı
Bizim yerlərə.

Nəfəsindən kəsildi axan sular,
Rənglər soldu,
Nəğmələr söndü,
Bağçalar tar-mar oldu,
Məclislər dağıldı,
Qədəhlər calandı.
Səssiz təslim oldu göl, dərə, oba

Nəşə talandı,
Könüllər aynası paslandı,
Boydan-boya,
Ağappaq sarıldı dünya,
Bürüdü hər yanı sislərin pası,
Başladı mövsümün bitməyən yası.

Şaxtada almas kimi parlayır buzlar,
Sanki enmişdir yerə ulduzlar.
Qoca çinar saxlamış nəfəsin.
Evlər bir şəfəq röyasıyla yuxuda dərin-dərin.
Bu qara qış qasırğasında
Bahara inanmaq,
Çox çətin.

*Tehran, 1981*

## AĞI

Rəsul Rza,
Çox gec tapdım mən səni
Və də
Çox tez itirdim.

Təsadüfən
Şerinlə
Bir gün qarşıma çıxdın.

Sözlərinlə gözümdən
Doğru
Könlümə axdın.

Sözlərindəki sehrə bütün qəlbimi verdim.
Bu çeşmə
Sonsuzacan axacaqdır,
Deyirdim...
Elə bil qara tale bunu mənə çox gördü,
Addım basdığın bağça birdən tar-mar oldu.
Dərdiyim tər qönçələr, güllər



Əlimdə soldu,
Heyif, heyif!
Çox gec tapdım mən səni...
Bilirsən haçandandır
Araqapı
Bağıydı.
Qapalıydı üfüqlər
Seçəmmirdim başım üstə
Sənin kimi ulduzların işığın
Bağlı gözlər necə seçsin gündüzlərin işığın?!

Yoxdu izin,
Yoxdu imkan,
Sizin
Gözəllik yaradan əlinizi sıxmağa
Bir an da olsa yol alıb,
Şerinizin bağçasını tamaşaya çıxmağa,
Bir boylanıb,
Bu bir taydan o bir taya baxmağa.

İndi gələn bu kədərli
Xəbərlə
Sevdiyin el yaslıdır,
Gözlərimiz yaşlıdır.

Ardınca
Çiçəklərlə
Məzarının yanında,
Matəminin sisində, dumanında,
Sanki səf-səf ehtiramla durublar
Diri ozanlarımızla bərabər,
Füzulilər, nəsimilər, vaqiflər
Oğullarının yasına gəliblər.
Aldığımız bu kədərli,
Xəbərlə
Elimiz matəmlidir,
Könüllərimiz qəmli,
Gözlərimiz nəmlidir.

*Tehran, 1360 (1981)*

## SÖYLƏ MƏNƏ, FALÇI NƏNƏ...

Hər gün bir az daha artıq
Nəşəm, ümidim solur.

Xəzəl olan hər çiçəklə,
Hədər olan hər əməklə,
Ürəyim qapqara olur;
Gözlərim yaşlarla dolur.

Hər bir gedib dönməyənlə
Köçüb görünməyənlə,
Bir az daha yalqızlığım çoxalır...

Söylə mənə, falçı nənə,
Söylə, mənim röyalarım
Gerçəkləşəcəkmi?
Haçan?
Açılacaqmı ürəyim?
Açılacaqsa nə zaman?

Nə vaxt
Yamyaşıl mövsümdən
Gözlənən
Xəbər gələcək?
Uçub köçmüş gözəl quşlar
Dimdiklərində diləklər
Və gizlincə
Könüllərdə qönçələnən çiçəklər
Bağçamıza dönəcək?
Bahar hökm sürəcək,
Həyat bir az güləcək?

*Tehran, 25.09.1981*



## HƏSRƏTDƏN DÖNÜŞ

*Qureyşin zülmündən qurtulmaq üçün Peyğəmbərin icazəsi ilə Həbəşəyə (Həbəşistana) mühacirət etmiş müsəlmanları geri qaytarmaq qəsdi ilə Necaşinin yanına Əmir As və Abdullah ibn-Rəbiənin başçılığında bir heyət getdi. Bunlar pis niyyətlərinə müvəffəq olmadılarsa da, mühacirlərdən bir neçəsi "Məkkədə sülh və əmin-amanlıq olmuş" deyə yayılan aldadıcı şayiələrə inandılar və yurdlarına qayıtdılar...*

Həbəşənin isti qucağından
Qopartdı bizi bir yığın yalan.
Eşitdik ki,
"Vətəndə ədalət qurulmuş,
Qureyş inadından vaz keçmiş yorulmuş."
Məkkədə düşmənlik bitmiş, sülh olmuş,
Dövran dəyişmiş, zamana dönmüş,
Kinlər sönmüş"...
Arxamızdakı körpüləri yandırdıq
Vətən deyə, yurd deyə,
Hicrət yollarında döndük geriyə.

Məkkəyə gəldik.
Orda bizi əski cəlladlar gözləyirdi
Və cavabsız suallar beynimizi yeyirdi.
Haradadır vəd edilən vətən?
Hanı artıq ədavətlər bitmişdi?
Hanı-hanı
Dindaşlarımıza qovuşacaq,
Sülhdə yaşayacaqdıq?
Nə acıdır yalan sözlərə qanmaq
Aldanmaq,
İçdən yanmaq.

Məkkəni bürümüşdü ölüm dumanı,
Dibsiz bir kədərə
Cummuşdu şəhər...

Məkkəyə hakimdi qaba cəhalət,
Qaranlıqlar içində
Düşmən qılıcı kəsirdi, doğrardı.

Bu qanlı zülmətdə
Aradabir qığılcımlar parlayırdı,
Adsız-sansız qəhrəmanlar doğulurdu.
Eşidincə
Məzmun oğlu Osman kimilərinin
Vəlid ibn-Muğeyrənin
Ona lütf etdiyi himayəti qürurla rədd etdiyini,
Və şair Ləbidin qorxmadan "müsəlmanam" dediyini...
Sanki bir az ürəklərə su sərpilir,
Ölgün ümid dirilirdi.
Sanki dumanlar dağılır,
Üfüqlər də ağarırdı.

*Tehran, 1361 (1982)*

## BİZİM AĞAC

Kökü könlümdədir,
Gövdəsi ətimdə.
Arzularım yarpaqlardır
Əsim-əsim əsir,
Çiçəkləri xəyalımın parçalanmış aynasında,
Sərpilmiş,
Dalğalanan ətri
Misra ilhamlarıdır...

Gözəlim,
Gözəl gözlərini aç,
Bax bu ağac
Mənimkidir, səninkidir, bizimkidir;
Onu
Dal-dal, budaq-budaq,
Çiçək-çiçək, yarpaq-yarpaq
Sevgimizdə barındıraq.

*2 sentyabr, 1982*



## NAĞIL KİTABI

Dalmışam xülyalı səhifələrinə...
Şəkillərindəki ceyran yollarındayam.
Əngin röya dəryasında yelkən açmış xəyalım
Qış gecələrim yaz nağıllarından danışır.
Mavi neysan buludlarında
Söndürəcəyik susuzluğumuzu.

İçimdə ötən
Quşlarımın mahnıları qulaqlarımda,
Könlümə çökən
Dan yeriylə
Dağılır dumanlar,
Açıqlar susur,
Sevgi cingildəyir içimdə büllur-büllur.

Yellərin dağıtdığı dalğa-dalğa nəğmələr
Qorxaq, utancaq, əl dəyməmiş,
Bulaşmamış,
Qısırlaşmamış,
Açmamış qönçələr kimi
Təzə və tər.

Xəyal göllərində
Oynaşır
Ay-ulduz nilufər.
Mən də
Üzmək istəyirəm
Quşlarla bərabər...

Lakin bir ağır sis sarmış ruhumu:
Vidaya bənzər.
Başım üstə buludlar,
Ləngərli gəmilər...

*Tehran, 1982*

## VƏHŞİ QUŞ

Bilmədiyim
Vəhşi bir quş
Bağçada
Ən uca budağa qonmuş,
Ötər, ötər yorulmadan ötər.

Hər şeyə qarşı:
Kül rəngli göyə,
İkindidən bəri döngəni kəsən
Tələsən gecəyə,
Xəstə səhərə,
Yorğun günəşə,
Budanmış ormandan
Qoparılmış qol-budaqların sobalarda yanan
Damlarda uçan
Dumanına qarşı
Boranın susmayan zəfər marşına,
Qaranquşların son uçuşuna,
Lal axan sulara,
Bulağın yalvaran səsinə,
Ölü yarpaqların səfilcə sürünməsinə,
Yerlərə sərilmiş soyuq kölgəyə,
Hər şeyə qarşı,
Gecəyə qarşı,
Çoxdandır bu quş durmadan ötər.
İndiyəcən
Gəlib keçən hamı usta ovçular,
Onu
Nişan aldılar.
Amma, o hələ də
Ötür durmadan,
Arzularımızın əlçatmaz bir budağından.

*Tehran, 1985*



## XÜLYALAR GÜNÜ

*Möhsünün xatirəsinə*

İndi xatırlamazsan
– Xatirlamaz ölülər –
Yadımdadır
"İlahi komediya"yla başladı
Bu gün artmanlar pöhrə vermiş bayırda,
Bir aşağı-yuxarı bir yaz günü açılan,
Sərxoş edən
Ortaqlaşa röyamız.

Bizə sonsuz gəlirdi
Gələcək adlı o yol.
O yol əbədi bahar ölkəsindən keçirdi.
Quşları, çiçəkləri,
Gözəllikləri
Bol-bol.

Hər yer rəng,
Hər yan ahəng,
Hətta böcəklər qəşəng,
Kəpənəklər
Bənək-bənək.
Küçədəki adamlar belə hər biri mələk
Gənc qızları "Beatris"
Qocalar isə "Verjil".
Bizi gəzdirirdilər hər yeri mənzil-mənzil,
Hər yanı qədəm-qədəm.

Xəyalən dolanırdıq gələcəyin sehrli mavi cənnətlərini...
Zira o "komediya"da
Nə "əraf" vardı,
Nə də
Canlar yaxan "cəhənnəm".
Buludlardaydı gözün
İçirdin o ilahi şərabı udum-udum,
Gəzirdin o daldığın sərabı addım-addım.
Heyif...

Kim bilir bəlkə
Ömründə yaşadığın ən şən günlərdən biri
O axşam vaxtı ayıq,
Hər iki gözün açıq,
Şirin yuxu gördüyün,
Nəşəsini sürdürdüyün,
Kölgələrlə qol-qola
Bayırlarda gəzdiyin
O sehrli saatda
Qızılgül *kimi solan*
O xülyalar günüymüş!..

*1986*

## DİVAN ŞERİ BAĞÇALARINDA

Şerin sehrli zövqünə daldım bütün gecə,
Seyr eylədim o sirli dünyanı gizlicə.

Gördüm ki, bağçalarda qurulmuş büsatlar,
Aşiq bir əldə badə və əldə zülfü-yar.

Məsti-vüsal ikən qəmi-hicranla ağlayır,
Saz səsləriylə çalxalanır göl, çəmən, çayır.

Hər gözdə sevgi, dildə gözəl söz, ürəkdə sız,
Eşq atəşiylə lalə alışmış yanır hənuz.

Təkrar olur şirin-şirin ol sevgi qüssəsi,
Dağlarda əks edir hələ Fərhadların səsi.

Məcnun sərabi-eşqdə röyasın axtarır,
Çöl-çöl gəzir, itirdiyi Leylasın axtarır.

Şair də bir kənarda düşünməkdədir həzin,
"Sad" gözlü, "mim" ağızlı, "əlif" boylu dilbərin.



## ALTI NƏSLİN XƏYALI

Altı nəslin xəyalı bu aynaya əks etmiş,
Altı yol təkrarlanan bir nağıl burda bitmiş.

Albomlarda saralmış rəsmlər hələ gülür,
Masada büllur qədəh yenə şərab gözləyir.
Camlardan günə eyni mənzərələr gözləyir.
Yüz illərdir işləyən saat hələ işləyir,
Sanki gəlib keçənə bir sirr açmaq istəyir.

Sonsuz yolçuluqlardan ancaq nəxşlər qalmış,
Ümid yüklü gəmilər ləngərin harda atmış?
Batmaz deyilən günəş uzun illərdir batmış,
Divarda Budda rəsmi dərin xəyala dalmış,
Sonsuz yolçuluqlardan ancaq nəxşlər qalmış.

Axşam hər kəs gedincə əl-ayaq çəkilincə
Qulaq versək pillələr ağır-ağır cırıldar.
Rəsmlər divarlardan birər-birər enərlər.
Otaqları gəzərlər.
Möhtəşəm yataqlardan xəyalətlər qalxarlar,
Tərk edilmiş beşiklər yavaşca tərpənərlər,
Görünməyən dodaqlar həzin laylalar söylər.

*Edinburq, may, 1988*

## RÖYA

Boyu aşan otların ortasına uzanmaq,
Yamyaşıl sonsuzluğun qucağına atılmaq,
O zümrüd şəhərdə küçə-küçə dolanmaq,
Hər döngənin başında bir ömür daldalanmaq.
Özünü o aləmin bir parçasıymış sanmaq.

Rəbbim, nə acı!
Bir gün bu röyadan oyanmaq!

## QONAQLIQ

Çək pərdələri,
Aç pəncərəni.
Qoy ilk baharın
Hamı rənglərin
Qonaq çağıraq.

Orman ardında
Sisə sarılmış günəşə sarı
Heç dadılmamış
Yasaq nəşənin
Çılğın şövqiylə
Bar-bar bağıraq.

Uzun illərdir
Qat-qat
Qorxunun boğçalarında
Gizlətdiyimiz
Bikr arzuları
Bu sərxoş edən
Yelə
Sovuraq.

Bu köhnə qəsrinə
Yüz illər boyu –
Başından keçmiş
Macəraların
Sarmaşıq kimi
Dörd yanın saran
Qarma-qarışıq
Xatirəsindən
Sabaha doğru
Bir keçid tapaq,
Bir tunel vuraq.



Çək pərdələri,
Aç pəncərəni.
Qoy yazın
Hamı ahənglərinə
Və rənglərini
Qonaq çağıraq.

*Tehran, 1989*

## ÜŞÜYƏN AY

Körpünün altından
Suların durmadan
Zaman tək amansız,
Ahəngli-ahəngli
Axışı vardır.

Pozulmuş bağlarda
Son vida günündə
Mövsümün sunduğu
Xəzəldən xalatın
Sarı, qırmızı
Naxışı vardır.

Axşam küləyi
Səhərin üstünə
Qaranlıq çilər.

Dumanlı üfüqdə
Sonbahar seçilir...
Yellərdə
Beşik tək tərpənən
Yuvanın
İçinə yatanlar
Röyada uçurlar.

Köçəri quşlar da
Elə bil indidən
Hicrətin xülyalı yolunu tuturlar.

Dəniz də çatıbdır qaşların
Çırpınan köksündə tufanlar qaynaşır
Zəncirdən qurtulmuş div kimi dalğalar
Coşduqca qudurur.

Gurlayan buludlar,
Çaxan ildırımlar
Qaranlıq gecənin nəbzində vurur.
Payızın
Başlamış
Demək sonsuz yası.

Bu gecə
Sapsarı göstərir
Yuxuda yeriyən
Ayın
Donmuş əksin
Üşüyüb titrəyən
Hovuzun aynası.

*Edinburq, 6 oktyabr, 1989*



## GÖZ YAŞI

Damına
Yük çatmış maşınlar
Vasmişin yolunu tutanda
Onlara həsrətlə baxardıq;
İçində əyləşmiş yolçular
Bəzisi nəşəli,
Bəzisi yol çəkən gözlərlə
Görmədən,
Heç kirpik çalmadan
Bir ləhzə görsənib sonra yox olardı.

Biz yolun yanında
Xülyaya dalardıq.
Uzaq ölkələrə
Biz də bir səfərə
Çıxmaq arzulardıq.

Toz-duman içində
Maşınlar itərdi,
Gedənlər gedərdi.

Görkəmli qələmə səfləri,
Söyüd dallarının nazlı yellənməsi,
Arxa təpələrdən
Axan arxın
Arxayın səsi onlara əlvida deyərdi.

Amma ki,
Haraya getsə, getsinlər
...Sobanın ağzından fışqıran alovun
İlanlar diliylə danışan
Qışları,
...Camlarda işlənmiş

Qırovdan gözəl naxışları.
...Təbrizin
Nazlanan həvəsli, utancaq baharı,
...Əriyən buzların dəli sel-suları,
...Tərəbar satanın Hökmavar nobarı,
...Səhərin gülsabah üstündə titrəyən şehləri,
...Yayların axşamdan axşama
Əsməyə başlayan mehləri.

Xatirə gəldikdə,
Hər yolçu
Çarəsiz
Bir ləhzə o keçmiş günlərə dönəcək,
Gözü nəmlənəcək,
Papirosu
Əlində sönəcək.

Sonra,
Titrəyən barmağıyla
Kirpiklərinə dolan
Bir damcı göz yaşın
Gizlicə dərəcək...

*Edinburq, 17.10.1989*



## SORUŞMA HEÇ

Soruşma heç
Keçən gecə necə keçdi?
Hələ şükür,
Almas nişan gələn fəcr
Qara divin
Döşün deşdi.

Dağlar kimi
Koma-koma,
Köksüm üstə
Çökən kabus buludları
Artıq köçdü.

Çən çəkildi,
Gündüz getdi,
Günəş üfüqdə yüksəldi.

Nəydi o yəlda gecəsi,
Qarabasan işgəncəsi?

İndi
Sərin bir səhərin
Buz şərbətin
Dada-dada
İçirəm,
Ləkəsiz mavi səmada
Bir quş olub uçuram.

*1989*

## YAĞSIN YAĞIŞ

Bağçada qızıl yonca,
Qoy açılsın,
Qoy gülsün.

Qıpqızıl yarpaq-yarpaq,
Və çılpaq,
Yaqut rəngli, ətirli,
Gözəl gül
Görkəmiylə görünsün,
Açılsın sərgilənsin.

Görsün göyün göy gözü,
Qaçılansın gecə geyimli atlar,
Gəlsin boylu buludlar,
Yağsın şıdırğı yağış,
Susuz gölün saralmış,
Üzünə bir rəng gəlsin,
Bağlar gülsün,
Bağçalar
Çiçəklənsin, güllənsin.

*Tehran, 1989*

## BULUDLAR

Bu sonsuz mavi göydə
Qatar-qatar dəvələr
Zəhmət yükü daşırlar.

Yep-yekə yelkənlər
Yuxuda gəzər kimi
Avarə dolaşırlar,
Yollarını çaşırlar.



Elə bil yerdən qopmuş,
Mavi göyə tullanmış
Taxım-taxım adalar
Salxım-salxım qaralar.

*

Yellərdə dalğalanan
Şalların
Ətləslərin
Arğacı və erişi
Ağappaq ipək-ipək
Xəyalından
İlmək-ilmək
Hörülmüş olsa gərək.

Bəzən tel-tel dağınıq
Yumaq-yumaq
Və yumşaq.
Kənarı gümüş sırma,
Ortası lay-lay pambıq.

Bəzən qorxulu yaman,
Qara nəhəng qocaman,
Təndir kimi ağzından
Alov saçır,
Od yaxır,
Qudurduqca, qudurur...
Dalbadal göy guruldar,
İldırım,
Şimşək
Çaxır.

*Tehran, 1990*

## BİZ-BİZƏ

Nə gözəldir xülyanın dalğın dənizlərində
Könlüncə yelkən açmaq...

Saatları unudub
Sıxıntının darısqal keçidindən qurtulub
Bütün güc ilə qaçmaq...

Başda ərgənlik, gənclik,
Könüldə səfa,
Dinclik,
Sevinclərə doymamaq.

Nəşəylə qanadlanıb,
Buludlar ötəsində
Maviliklərə dalmaq,
Süzülüb qanad çalmaq...

Ölümsüz zövqlərin
Bulağına qapanmaq,
İçmək...
Özündən keçmək.

Röyalarla üz-üzə,
Diz-dizə
Yalnız qalmaq...

Özgələri buraxmaq,
Daim biz-bizə olmaq.



## NİLDƏ MƏRMƏR SANDIQÇA

Məhv olmuş sayqılı kölgələr,
Silinmiş sevgili simalar, üzlər.
Pozulmuş əl-ələ gəzdiyimiz bağçalar,
Yox olmuş al-əlvan məsud mövsümlər.

Və itmiş üzlərdən
Yadımda ancaq
Qalıbdır
Qarışıq bəlirsiz izlər...

Yaşanmış günlərdən,
Bu qırıntılar,
Bu töküntülər
Mənim üçün sayılır ən dəyərli miras,
Ulu yadigar.

Mən bu əziz yadigarı
Ən parlaq incilər tək
Bir kiçik sandıqçada
Könül ümmanımın ən dərin yerinə
Gömdüm.

İştə budur həyatımın hikməti,
İlhamımın qaynağı,
Tükənməz bərəkəti...

Keçmişlərdən
Bizə çatan bir misal var:
"Nil çayının ortasında,
Mərmər sandıqçasında
Yatırmış Həzrəti Yusif:
Axan suların hərdən
Qabararaq daşması

Nilin sahillərində,
Bərəkət süfrəsini
Aradabir açması
Papirusun yaşılı
Budaqların sarısı...

Hər şey ondan
O gizlin sandığın bərəkəti
Və onun
Yümnündəndir."

*1991*

## SƏNSİZ

Gözümü açanda sən olmayınca,
Qolların boynuma sarılmayınca,
Gözündən könlümə nur dolmayınca,
Neylərəm üfüqdə çıxan səhəri,
Boş yerə camlardan baxan səhəri.

Baharın ətrisən, yayın yemişi,
Arının pətəyi, gülün gülüşü,
Xəzəlin qızılı, qarın gümüşü,
Qaranlıqda axan ulduzlar seli,
Könlü qımıldadan arzular yeli.

Həyatın sənsiz yox heç duzu, dadı,
Varlığın dəyərli qalmaz bir zadı,
Qırılır nəşənin qolu-qanadı,
Dünyanı versələr səni vermərəm,
Boş qalan bir ömrü dəxi neylərəm.



## TANIŞLIQ

Dumduru
O buz bulaqdan
Uddum,
Uddum.

Su əmərkən
Dodağımda
Qayaların ürək döyüntüsün duydum,
İçdim, içdim, içdim, içdim...
İçimdəki yanğı söndü,
Sərinlədim.

Bir daha daldım dağlara,
Gecələrin qapqaranlıq
Və upuzun tunelindən
Dadlı, aydın röyaların
Ölkəsinə düşdü yolum.

Orda
Mavi quşlar vardı,
Əlvan-əlvan mahnılarla.
Utancaq bir gün doğarkən
Tanışdım mən
İlkbaharla.

## FAL

Öpüşlərində saxlanan sirri
Dodaqlarından
Öyrənəcəyəm.

Kiçik və yumşaq
Quş balası tək qorxaq əlini
Ovuclarında oxşayacağam.

Sənin ətrinlə
Sərxoş
Göylərdə qanad çalaraq
Dan ulduzuna yol açacağam.

Eşq laylasının şirin yuxusun
Bir gün
Səninlə bölüşəcəyəm.

Sən
Bir çiçəksən
Səni iyləyib, öpüb
Nəhayət,
Sevgi falında
"Sevirmi, sevməyirmi?"
Deyərək birər-birər
Gül yarpaqlarını
Qopardacağam.

Və səni
Görkəmli çılpaqlığında
Sonsuza qədər
Seyr edəcəyəm.



## ƏLLƏRİNDƏ ULDUZLAR

Hanı,
Hərdən gələrdin,
Başım üstdə durardın;
Əllərində ulduzlar,
Qucağında mahnılar,
Gözlərində
İlkbahar.

Sərin mavi səhərdə
"Günaydın!
Şairim, qalx,
Ətrafa bax", –
Deyərdin,
Halımı soruşardın.

Sən gələndə
Könlümdə
Qalaq-qalaq qalanmış,
Buzlar da əriyərdi.
Peltək dilim açılar,
Qaranlıqlar gedərdi.

Dərya-dərya dərdimi
O anda unudardım,
İçimdə dalğalanan
Diləklərə dalardım.

Səni görüncə köksüm
İlhamlarla dolardı.
Ruhumu saran duman
Günəşində yox olar,
Üfüqlərin açılar,
Dəli könlüm coşaraq

Ayrılığı,
Ölümü,
Yadımdan çıxarırdı...

Yalvarıram
Nə olar
Məni artıq buraxma.
Nura möhtacam,
Möhtac!
Məni üzüstə qoyma,
Qaranlıqlarda tutma.
Qısırlıq çox yamandır
Gəl, sevgilim
Amandır.

## YENİ GÜN – NOVRUZ

Utancaq yaz günəşi dan yerində qızardı,
Firidun Şahın mülkün
Tərk etdi qapqara qış.
Hər yanı işıq sardı,
Ümid şövqilə könül yuxusundan oyandı,
Ürəklərdə yaşamaq istəyi alovlandı.
Bir uğurlu yeni gün
İrəcin ölkəsində Novruz deyə adlandı.
Turun yurdunda isə
Ərgənəqon bayramı – deyə şənləndi hamı.
Yeni gün atalardan bizlərə yadigardır,
Yalnız çöllərdə deyil,
Evlərdə də bahardır.
Köçdü getdi qara qış,
Gözəl yaza min alqış!

*Nottinhem, mart, 1992*



## NİSGİL ADLI RÖYA

Gəl qırx illik şərabım,
Rəfdə qalan rübabım,
Çoxdandır xoş ətrini
Duymadığım
Ulu zövq
Və nisgil adlı röyam.
Qoy
Mahnılarımın ən son
Qıpqızıl şəfəqində
Ulduzlar mehrabına
Diz çökərək qapanım.

Taleyimə yazılmış müvazi cizgiləri
Qovuşmaq həsrətiylə
Olan gücümlə danım.

İlhamım,
Tut əlimi,
Durma,
Aç qollarını
Nə gözəl hər gün səhər
Şerin sehrli bağından
Dərmək təzə çiçəklər.

Ağ zanbaqlar içində
Yellərlə dalğalanmaq,
Körpə tumurcuqlarla
Sərxoşca yarpaqlanmaq.
Təbin gur bulağından,
Doya-doya həzz almaq.

O yaqut dodaqların
Misra-misra

Sunduğu şərab ilə məst olmaq.
Ucsuz-bucaqsız,
Əngin
Sirlər ümmanının
Dərinliyinə dalmaq.

*27.05.1992*

## BAKI

Örpəyi açılmış,
Saçları
Küləkdə sərpilmiş, saçılmış.

Uzaqda üfüqə dikilib yol çəkən atəşli gözləri
Qalıb
Doluqsamış.

Gül dodaqlarında
Kül rəngli təbəssüm.
Solğun bir iztirab çiçəyi
Qapqara gecənin kabusundan
İndi
Səssiz macəra sübhünə
Oyanmışdı ürəyi.

Qızıl axşamların xəyalı
Bir yanğın kimi zehnində dalğalanır.
İşıqlı səhərtək alnına
Buludlar toplanmış.

Arxada
Ayrılıq qışları,
Qabaqda



Quş uçmaz, yol verməz dağların
Çətin enişləri,
Ağır yoxuşları.

Onunla
Keçmişin gələcək çağlarla
Xəlvət qovşağında görüşdük.

Onunla
Şəhərin
Adını itirmiş
Yaşıl bir parkında
Danışdıq.

Sevdalı başında
Durmadan
Yönünü dəyişən tufanlar.

Hıçqıran səsində
Köksünə sığmayan
Boğulmuş üsyanlar,
Başında dumanlar.

Adını demədən
Tanıdım mən onu,
Qarşımda
Min illik sevgilim dururdu.

Titrəyən o yaqut dodaqdan
Duyğular sel kimi qəlbimə axırdı.

Sunduğu illənmiş
Məhəbbət şərabı,
Qəlbimə od vurub

Yandırıb yaxırdı.
Üzündə üzümü,
Dilində sözümü
Tapmışdım.

Bir daha dünyaya gəlmişdim,
Elə bil təzədən
Anamı görmüşdüm,
Elimə,
Odama,
Yuvama
Dönmüşdüm.

Tarixin cövrünə,
Zamanın amansız seyrinə
Əsrlik əsirlik dövrünə
"Yetər artıq, dayan"
– Deyilən meydandan
Yol aldıq.
Ağaran təzə bir səhərin
Sehrinə tutulduq
Və daldıq...

Bir quşun uçuşu oyandırdı bizi,
Təcr ilə doldurduq qədəhlərimizi.
Könüllərimizdə cücərən ümidə
Tapşırdıq qədəhlərimizi
Və qara gecənin
Ən son qəmlərində
Röyalarla dolu bir dərin baxışda
Əritdik kədərlərimizi.

*İstanbul, 25.10.1992*



## QAYĞILI ŞƏHƏR

Dəmir qapıların ardında yuvalanmış,
Yol verməz dağların dalına dayanmış
Hücrə bir yaylada
Qurulmuş.

Yayın istisində,
Qışın şaxtasında
Qalıb qovrulmuş.

Zamanın qırağında,
Məskənlərin irağında,
Unudulmuş
Bir şəhərdi.

Qürbətin bucağında,
Qorxunun qucağında,
Qıvrılan bu məchul təəssüs ocağı
Şübhəylə yoğrulmuş,
Qısılmış, ufalmış,
Oğulmuş, boğulmuş
Bir yerdi...

Vaxtdakı əməllər görsəndi,
Və saat çaldı.
Dağların dalısındakı dənizlər
Çalxalandı,
Qara yellər əsdi,
Kükrəmiş sellər hər yeri basdı,
Bəlalar gəldi,
Fəryadlar yüksəldi,
Ad və Səmud vədəsi təzələndi.

Daş üstündə daş qalmadı.
Yıxıldı qızıl qalalar,

Baş əydi hündür qüllələr,
Dəyişdi hökmünü qədər,
Yetmiş illik bir dövran devrildi,
Tarixdə
Bir çağın səhifəsi çevrildi.

Bu ara
Bizim hücrə,
Şəhəri
Ayıran divarlar.
Eriha misalı yıxıldı, töküldü,
Dağların başından dumanlar çəkildi,
Və yollar açıldı.

Açılan yolları aşmaq,
Qurulan körpüdən keçmək üçün
Bizim yerlilərin
Bilmədikləri, bəyənmədikləri
"Böyük şəhər"lər
Dəstə-dəstə gəldilər
Salamsız və kəlamsız
Yuxarı başa keçdilər.

Əyləşdilər,
Yedilər, içdilər,
Orda mənzil saldılar,
Bir neçə gün qaldılar.
Və bizim yerlilər
Şübhəli yadlarla üz-üzə gəldilər.

Nə olacaq indi?
Gələnlərin dünyası
Yerdən göyəcən bunlarınkından uzaq,
Kişiləri qadın kimi incə yumşaq,
Qadınlar isə
Fılıq yumurta təkin çırıl-çılpaqdılar.



Onlara baxdıqca utandılar,
Nə sözlərinə inandılar,
Nə fikirlərini qandılar.

Amma o bir yandan,
Bazar bir az dirçəlmişdi.
Toz basmış dükanlara
Müştərilər gəlmişdi...

Neyləsin indi?
Sevinsinmi,
Döyünsünmü?
Bir yandan
Qazanc vəsvəsəsi
Onları həyəcanlandırır,
O bir yandan
Yadlara qarşı
Dərin şübhəsi
Qayğılandırır.

Beyinlərində
Min bir tikan tək
Sual işarətləri...
Bəziləri isə
Bu işarətlərə,
Bir mizraq kimi
Kinli baxışlarla
Gəlib gedəni
Nişan alırlar.
Bəziləri də
Bağçadan bir gül
Dərib,
Suallarını
Ona sarırlar...

*İqdır, 1992*

## TİKANLARDAN HÖRÜLMÜŞ...

Tikanlardan hörülmüş ağır məlamət tacın
Başında məğrur
Gecə-gündüz daşıyar.

Onu boğan əlləri
Şəfqətlə öpə bilər,
Taleyindən məmnundur.

Ayağında
Zəncirin ağırlığına dözər.
Boynunda boyunduruq yaraşırsa sevinər.

Gövdəsin,
İlan kimi sancan damcıları
Hörmətlə rəfə düzər.

Üstüörtülü yaman
Mədhə bənzər təhqirə
Qulaq verər öyünər.
Alçalmaqda ucalıq varmış deyə inanar,
Xəyalı gerçək sanar.

Hər yeni ay doğanda.
Batan günəş, üfüqdə, qızıl qana boğanda
Onun dərdli könlünə
Enər, dumanlar, sislər,
Qaranlıq acı hisslər.
Öz-özündən diksinər.

İldə bir tək gün açıb solan çiçəyə bənzər,
Güləndə başqasının dodaqlarıyla gülər.

O bir şamdır,
Yananda ətrafa işıq saçmaz.
Heç yeri aydınlatmaz.



Özgəyə həyat verər,
Özü həyatdan qorxar.
Divarların dalında heç bilməz nə yox, nə var,
Pərdələrin ardında gözlərdən gizlədilər.

Var ikən yox sayılar,
Öz qüdrəti altında xarab olar,
Əzilər.
Bir maraldır, ovçusun bucaq-bucaq axtarar.
Bülbül kimi hərdənbir,
Xoş mahnılar oxuyar,
Qəfəsində dustaqkən özünü azad sanar,
Yarasalar misalı qaranlıqda barınar.

Nəşədən çox kədərdən,
İztirabdan zövq alar.

Bir almasdır ki, ancaq
Sandıqlarda saxlanar.

Bir günəşdir,
Və lakin, kor bir çıraq misalı,
Qapqara buludların arxasında qısılar...

Manqal köz-köz qızarar,
Beşikdə körpə ağlar,
Uzaqda bir məbəddə tüstülü bir şam yanar.

*Nottinhem, 09.02.1993*

## SUAL

Sual budur:
Haradan,
Hansı daldan
Qoparaq,
Hansı illər dalınca,
Sürüklənmiş bu yapraq?
Gözlərini üfüqə dikmiş,
Böyük səbrlə
Nə gözləyir bu topraq?
Hansı qələm yazmışdır,
Əlimdəki oxunmaz qara cildli kitabı?
Hansı saqi sunmuşdur,
Bizi yandırıb-yaxan içdiyimiz şərabı?
Dağ-dərəyə əks edən,
Kimin səsi bu fəryad?
Sağır, dilsiz, sıldırım qayalardan.
Boş yerə
Kimdir diləyən imdad?
Kimin sərgüzəştini yavaşca pıçıldayır,
Söyüdlərin saçını,
Dararkən əsən külək?
Sahillərin alnına
Gərilmiş dalğaların
Çəkdiyi zolaq-zolaq
Bu cizgilər,
Nə demək?

*Nottinhem, 15.02.1993*



## SAATLAR

Saatlar ağır-ağır,
Əzabla,
İztirabla
Bitməyən intizarın
Butasında əririlər.

Hər nə etsəm bihudə
Sonsuz bir gözləməkdə
Çarəsiz təvəkküllə.
Çıxmazların qaranlıq
Dəhlizlərin gəzərəm.

Bu nöqtədən baxdıqda,
Kainat tərs görsənir,
İnsanların eşbuyla,
Uğraşıb didinməsi,
Uduzub qazanması,
Girişdiyi çalhaçal,
İnsana əbəs gəlir.

*Nottinhem, 12.05.1993*

## QATAR – 1942

İllər ili sürünüb gedən qatar,
Mənim üçün təzəydi.
Bütün səfər boyunca,
Tutdurduğu bir tək ritmi mənə təkrar edirdi,
Dönə-dönə bir sirri
Sanki açmaq istərdi.

Aradabir yorulmuş
Maşın töyşün alırdı
Bəzən də keyfə gəlib
Səsi yetdiyi qədər
Boğazını yırtaraq
Gur bir nərə ataraq
Çöllərə küy salırdı...

Dərə getdik,
Düz getdik,
Gecə və gündüz yuxumdan oyanınca,
Pəncərədən baxınca,
Birdən-birə özümü
Özgə aləmdə sandım.

Al-əlvan donun geymiş
Dost üzlü şən sonbahar
Gülümsəyirdi bizə.
Pişvaza gəlmiş kimi
Səf bağlamışdı bağlar.

Qatar uzun səfərin axırına çatmışdı,
Möhtəşəm bir istasyon
Qucağını açmışdı.
Şəhər salam verərək əllərimi sıxmağa
Əlini uzatmışdı.

*Nottinhem, fevral, 1994*



## EYNALI

*Eynalıda hər gecə bir çıraq yanardı*

Ulduzsuz gecələrin parlayan ulduzuydu,
Dağ başının şəhrimə salamıydı, sözüydü.
Qışın qaranlığından yaza çıxan iziydi,
Arzunun misalıydı, ümidin lap özüydü.
Ulduzsuz gecələrin parlayan ulduzuydu.

Uzaqlardan baxarkən yaxın bir aşinaydı,
Səssizlikdən zülmətə qopub gələn haraydı,
Dağın tacında almas, ucalardan ucaydı,
Kor qaranlıq içində şəhrin görən gözüydü,
Eynalının yurduma salamıydı, sözüydü.

Axşamın yanğınında son qığılcım sönəndə,
Qaranlıq pərdə-pərdə qat-qat yerə enəndə,
Ağızlar bağlananda, dillər kilidlənəndə,
O nur, səssiz gecənin tək hecalı sözüydü,
Eynalının Təbrizə baxan həsrət gözüydü.

Gözlərimi çəkərdi o işıq ta uzaqdan,
Sanki bir fəryaddı o "gəlin!" – deyə yalvaran,
Uzaq bir xatirəydi unudulmuş çağlardan,
Arzunun misalıydı, nisgilin lap özüydü,
Soyumuş bir manqalın küllənmiş son közüydü.

## RÖYAMDA ANAM

Dünən gecə
Röyamda
Anam hələ diriydi,
Namaz qılırdı,
Dua edərkən xısın-xısın yavaşca ağlayırdı.

Rəbbim!
Niyə heç xəbər gəlməz
Bizim üfüqdən o taya keçənlərdən,
Buradan köçənlərdən?
Bu yolun karvanları nədən dönməyir geri?
Sınıbdır sanki hamı körpülərin kəməri.
Bu göldə nə mənzil var,
Nə barınacaq hasar...

Qaranlıqda oyandım,
Gecənin sonlarıydı,
İliklərimdə duydum sağır qürbət ağrısın,
Ağırdı dağlar kimi,
Acıydı zəhər qədər,
Qara qəmlər qalandı qəlbimdə yığın-yığın.

Xəzəl olmuş bağçada ölgün, solğun yarpaqlar,
Sanki dilə gəldilər:
"Qara qış şaxtasında,
Yazın vədələrini yaddan çıxarmamağı,
Səbirli ağaclardan
Öyrən, inan"
Dedilər.

Yadımdadır,
Xəyalların sehrli aynasında
Hər görsənib
Yox olan rəngli-rəngli diləklər,



Gecələrin qorxulu qaranlıq yollarında,
Söylənilən mahnılar.

Yadımdadır,
Vəfasız kəpənəyin uçuşun
Bir sonbahar axşamı
Yaşıl-yaşıl gözlərə
Təqib edən çiçəklər.

Və hər döngə başında,
Qarşımıza xəbərsiz sıxa gələn kölgələr...
Şəhrə çökən axşamda
Gizlin bir iztirab var.

Qarlı, boranlı qışın
Ağappaq dağlarında
Pusqu quran buludlar,
Başımıza durmadan ələnən bu soyuq qar,
Yazın vədələrinə
Ümid olmaq istəyən ürəkləri qorxudar,
Elə bil buna görə
Röyamda dünən gecə
Anam dua edərkən ağlayırdı gizlicə...

Amma,
İçimdə bir səs
Mənə deyir:
"İndicə
Uzaqlarda bir yerdə
Bəlkə də ümidlərin
Ucqar bir obasında,
Yaz yağışı başlayıb
Asta-asta
İncə-incə".

## ƏLLƏRİM

Göyərçinlərin o gün ölüm, qara günüydü,
O gün yasaqlanmışdı quş oynatmaq əmimə.
Bu amansız fərmanı eşitmişdik hamımız,
Baxırdım mən kiçicik yalvaran əllərimə.

Səkkiz nazənin boynu ölüm qoparacaqdı,
On altı muncuq gözün işığı –
Sönəcəkdi
Dəxi qanad səsləri təmmuz axşamına,
Əks edəməyəcəkdi,
Göyərçinləri ölüm alıb aparacaqdı!
Bağvan Məmi mətbəxə bıçaq üçün getmişdi,
Quşbazlığa qurşanan əmim
Bilmirdi ki, hansı pirə yalvarsın,
Hıçqırıb inləyirdi,
İki göz – iki çeşmə,
Baxırdım mən də aciz ağlayan əllərimə.

Əmim həştidə sonsuz qəm, qüssə dəryasında,
Məmi dəxi mətbəxdə bıçağın sevdasında
Mənim beş yaşındakı
Qəlbim
Göyərçinlərin qara ölüm yasında
Quşlar xəbərsizliyin güvənciylə, keyfiylə
Buludlar röyasında,
Mənim kiçik əllərim bir çarə axtarırdı,
Çıxmazlar arasında...

Məminin sağ əlində qocaman iti bıçaq,
Təmiz ləkəsiz, qansız,
Əmimin gözündə yaş,
Üzündə gülümsünmə
Mavi göydə ağappaq buludlara yaxlaşan



Və bizdən uzaqlaşan
Səkkiz cüt azad
Qanad...

Mən isə qürur dolu baxışlarla baxırdım
Başaran əllərimə!

## BAYRAM

Qırlara
İlkbaharın dəvətinə getmişdik.
Mahnıların, sazların,
Sözlərin, söhbətlərin
Gah enən, gah yüksələn ahənginə uymuşduq,
Girərkən qüssələri qapıda buraxmışdıq.
Xatirə sandığından
Anıların
Ən parlaq incisin toplayaraq,
Sözləri süsləyirdik,
Keçmişlərin düyünlü boğçası açılırdı,
Nağıllaşmış günlərin hekayətin deyirdik.

Yaşlılar sözə dalıb,
Sisli xatirələri
Bir-bir paylaşırdılar.

Gənclər qıvraq –
Ən şaqraq
Mahnılarla uyaraq,
Ayaq vurub oynayır,
Qəhqəhəylə dörd yana nəşə yağdırırdılar,
Səslər qaynaşırdılar,
Hisslər oynaşırdılar.
Sevinclə deyə-gülə

Gün keçdi, zaman ötdü,
Şənliklər sürdü getdi...
Axşama doğru birdən
Baharın
Gurultulu sərxoş buludları da,
Tövşüyərək şənliyə
Ən son gəlib çatdılar.
İldırımlar çaxdılar,
Şıdırğı bir yağışda
Qiyamət qopardılar.

İnsanlar düşə-qalxa,
Yağmur, çamur içində
Evlərinə qayıdıb
Döndüklərində belə,
Bayram davam edirdi.

Dodaqlarda mahnılar,
Ürəklərdə
İlkbahar.

## İŞIQ

Hardansa
Birdən
İldırım kimi
Bir işıq yandı.
Axşamın mavi sahillərində
Sular çalxalandı.
Xatirələrin
Solğun kül rəngli üfüqlərinə
Dalmış ulduzlar bir-bir oyandı.

Tozlu aynaya əks edən şəhrin qaraltısında
Səssiz kölgələr yer-yer gəzirdi.



Ölü torpaq ələnmiş şəhrin
Köksünə sinən ağır dumanlar
Onu əzirdi.
Küçələr bomboş,
Pəncərələrin donuq gözləri kor-kor baxırdı,
Çiçəklər solmuş,
Çeşmə boş yerə bezgin axırdı,
Pozğun bağlarda
Ağaclar boy-boy keşikdəydilər...

İşıq yanınca
Duman çəkildi,
Aynalardakı anılar şəhri
Birdən dirildi.

Küçələr doldu,
Meydanlar daşdı,
Şəhər qaynaşdı.
Hər yerdən ayaq səsləri gəldi.
Pərdələr qalxdı,
Baxçalar güldü,
Çeşmə başından
Qızların şaqraq səsi yüksəldi...

Axşamın əsmər gözəllərilə
Dalğalar coşdu,
Küsüb sonradan barışmış kimi
Coşqun nəşəylə sahilə qaçdı;
Qumdan çəkilmiş bütün sədləri
Və sərhədləri
Çeynəyib aşdı.

## ÇƏNLİBEL

Burada nə divar var,
Nə də məhəccər.

Gəz gəzə bildiyin qədər,
Dostları al da gətir,
Qapını döyməyib gir,
Buranı öz evin bil,
Dolan, baş vur istədiyin hər yerə,
Burada heç bir sirr yox,
Ürəklər bir açıq pəncərə.

İnanırdıq bir gün gələr də unudular,
Nağıllarda anladılan qapqaranlıq
Zindanlar,
Qan dəryası meydanlar,
Burma bığlı,
Qızıl donlu
Pəhləvanlar,
Sultanlar...

Çağır gəlsin,
Gənc igidlər yurd salsınlar,
Obaların Çənlibeldə qursunlar,
Qız-gəlinlər güyümlərin
Gümüş mehtab bulağından
Ağzınacan doldursunlar.

Ozan gəlsin boy boylasın,
Soy soylasın,
Fincanlara
Məxmər-məxmər
Çay tökülsün,
Saz köklənsin,
Söz söylənsin,
Üzlər gülsün!



## SÜD VƏ BAL

Heç bilmədiyimiz
Bəlirsiz bir iz...

Xəritədə
Daha
Bir səhifə çevir,
Çarpaz işarətin
Göstərdiyi dərin
Dərələrdən en,
Yoluna davam et,
Yorulmadan get...

Orada
Ancaq xoş röyalarda
Çiçəklənən
Qızıl qonçalar açar.

Orada diz çök,
Öp o məbədin,
Ağ, sərin-sərin
Eşsiz mərmərin.

O cənnət guşəsində,
İç, doyunca iç
Nəşə yaradan,
Cana can qatan,
Can bulağından.
Durmadan axan,
Süd ilə baldan.

## YOL

Açılınca pəncərə,
Uzun illərdi susmuş
Bağçadakı mavi quş,
Çırpındı, dilə gəldi.

Buludlara başını
Dayamış
Ayaq üstə yuxlamış,
Qocaman qovaqların,
Titrək yarpaqlarından
Yaşıl işıq yüksəldi.

Göy qurşağı cığrına
Dörd nala at qoşduran,
Polad, qılıc miğfərli,
Parlaq altun kəmərli,
Fırtınalar qanadlı
Bir atlı
Ərənlər diyarının
Səmavi səmasına,
Yetişmək istəyirdi.

Yel keçərkən:
"Sən də gəl,
burada daldalanma,
ömür heyifdir" – dedi.

Birdən bir ulduz axdı,
Qapqaranlıq gecədə,
Uzun bir iz buraxdı,
"Tut bu yolu!" –
Söylədi.



## KİMLİYİM

Qırılmış aynamda təkrar oluram,
Dağınıq anılar yellərdə uçur,
Beynimə cavabsız suallar dolmuş.

Can çəkən gecənin davamı üçün,
Sislər, dumanlar səfərbər olmuş.

Hələ də adımı deyə bilmirəm.
Hələ də kimliyim
Qırx qat boğçada
Ovsunlarla düyünlü
Gizlin saxlanır.

Hələ də qardaşım bərkə düşəndə
Özündən utanır,
Əslini danır.

## İKİ HECA

Ruhumun şeridir,
Qəlbimin səsi,
Min cana bədəldir
Hər tək hecası.

Ulduzdan da parlaq,
Aydan da dilbər,
Qönçələrdən təzə,
Güldən müəttər.

Xəyalın
Könlümün ayrılmaz eşi,
Xatirən
Ömrümün sönməz günəşi.

## VENÜS

Xatırlayaq
Plininin ibrət dolu bir sözünü:
Praksitelin əsəri,
Məşhur, çılpaq Venüsünü,
İffət, əxlaq, namus... deyə
Koslular
Yıxmaq üçün
Öfkə dolu meydanlara birikdilər.

Obir yandan "Nidos"lular,
O əsəri
Ehtiramla
Məbədlərinin
Ən müqəddəs
Bir yerinə
Tikələr!

## TƏRCÜMƏ

Belə deyib qədimlər:
Tərcümə yara bənzər –
Gözəli sadiq olmaz,
Sadiqi könül çalmaz!



## QIRX TİKƏ BOĞÇA

Xatirələr sandıqçası açılanda bəzən çıxar
Ağ, qırmızı, yaşıl, qara günlərimizdən tikilmiş
Qırx tikə ömür boğçamız.

Əks eyləyər paslı, sınıq aynalarda
Keçmişlərdən arda qalan,
Yarı silinmiş izlər.

Və yadırğanan izlər –
Yay tətili aylarının
Sərxoş edən ahəngiylə
Axan zaman şəlaləsi.

Kiçik ovuclarımdakı
Ölü, balaca sərçənin
Göz yaşlarıma baxmadan,
İşləməyən saat kimi
Duyulmayan ürək səsi.

Unutduğum axşamlarda
Yeni doğan ulduzlardan
Hördüyümüz çələnglər.

Yağışları izləyərək
Göy qurşağından uzanıb dərdiyimiz
Qucaq-qucaq,
Dürlü, al-əlvan rənglər...

Keçmişin barlı yayları,
Şaxtalı-qarlı qışları,
Kül rəngli səhərlərdə
Bütün camlar üzərinə
Düşmüş qırov naxışları...

*Paris*

## BİTMƏMİŞ SENFONİ[1]

Günəbaxanlar arasında,
Şehlərdə yuyundu qızılgül.

Ən iri güldü baş üstündə günəş.
Zambaqlar lalələr kimi yandı.
Acı bir həzzlə çırpındı ürəklər.

Qərənfil
Sarmaşıq misalı
İstəklər budağını sardı.

Salamla vidanı birləşdirən görüşdə həsrət alovlandı.
Hər nəfəsdə son ləhzənin çırpıntısı vardı.

Ən sirli rənglərlə
Açıldı kaktusun gizlin çiçəkləri.
Sarsıldı varlığın çərçivəsi.
Hardasa böyüyən bir zərrə
Sonsuzluğu aşacaq,
Kükrəmiş sellər sədlərini sındıracaq,
Dənizlər basacaqdı.

Əgər,
Saatların nəbzi azacıq yavaş vursaydı,
Ya da
Zaman
Bir an
Dursaydı.

[1] Simfoniya



## EŞQ MAHNISI YAZIRAM

Axır çərşənbə kimi
İşıqlarda üzərəm.
Qanadlanıb,
Səhərin mavi-mavi qoynunda
Zirvələri süzərəm.

Söz,
Saz,
Sevgi,
Sayıqlıq,
Sevinc,
Səadət,
Sağlıq
həpsini bəzərəm.

Şeir bayrağı çiynimdə,
Eşq fərsanı əlimdə,
Xülya ölkələrini gecə-gündüz gəzirəm.

Həyatımda daddığım ən şirin ləhzələri
Xatirə ipliyinə
İnci-inci düzürəm.

Qələmimi şəfəqin zərinə daldırıram
İçimdəki baharın yaşıl yarpaqlarına
Eşq mahnısı yazıram.

## ABİDƏ

Qoca çinarın kölgəsində daldalanıram,
Yüz illərdir göylərə minlərcə əlləri
Qoynunda qaynaşan
Qucaq-qucaq mahnılara qulaq verişi
Və gecə-gündüz mövsümləri gözləyişindəki
Görkəminə dalıram.

Ulduzlar başı üstündə dolanar.
Köçəri quşların hamısın tanıyar,
Nə hirslənər, nə qısqanar.

Günəşdə isinər,
Şaxtada üşüyər, büzüşər,
Boranlarda qol-qanadı qırılar,
Yaralanar,
Nə sızıldar, nə inlər.

Qara yellər başı üstündə əsər,
Daşqın sellər dörd yanında köpürər.

Günlər dönər, aylar keçər, illər ötər,
Kölgəsinin naxışlı xalçasını sərin-sərin yerə döşər,
Yanındakı çeşməciyin mahnısını əzbər bilər,
Buludların üfüqlərdən-üfüqlərə köçünə baxar,
Onu qucaqlayan mavi sonsuzluğa dalar...

Baxıram yaşlı çinara,
O vüqarın və qərarın abidəsi,
Ümüdlərin, arzuların yaşıl nəğməsidir.
O hər sözü eşidir,
O hər olanı görür,
O hər sirri anlayır
Və səbrlə gözləyir.

Gözlədiyini bir o,
Bir də can yoldaşı,
Ətrafında dörd dönən kölgəsi bilir.



## XƏYAL-HEYKƏL

Dənizləri
Anımsayan əlləri
Qaranlıqda boş.
Uymuş diləklərinin iğvasına,
Ən böyük sualın
Cavabını axtarır.

Zirvələrdə
Dumanlara bürünmüş bir xəyal-heykəl
Gözlərim ona taxılır;

Yuxarı
Ona sarı
Yol alır,
İçinə dalır,
Sonra
Bir quş kimi
Susqun dodaqlarına qonur.
Və gözlərinin boş bəbəklərində daldalanır.
Açıq pəncərə ancaq bu
Başqa heç bir nəyi görmək imkanı yox,
Çiyinlərinə axan coşğun şəlalələrdə
Yıxanır.

Dənizləri
Anımsayan əlləri,
Qaranlıqda yenə boş.
Uyur diləklərinin iğvasına
Və əski məsəllərin müəmmalı imasına
Deyir: boş deyil bunca rəvayətlər, sözlər...

Yoxsa buludları izləyən
O əsrarlı gözlər
Gizlin-gizlin nəyi gözlər?

## SEVDA

Sevda geyil, bəs bu nədir,
Daş qəlbinə Kəbə deməm?
Yalınayaq, yana-yana,
Yanğın yerində yeriməm?

Üzüb əli eldən, gündən,
Üzülüb qəhrin üzündən,
Üzünə həsrət qaldığım?

Bir kor ulduzun izində,
Üfüqlərinə daldığım?
Uçub arzu qanadıyla,
Göylərdə havalandığım?

Xəyalımda gül sinəndən,
Əmzirilib də dandığım?
Şirin-şirin yuxulardan,
Ağlayaraq oyandığım?

Gözlərinin dənizində,
Yelkənlər açıb getdiyim?
Çıxmaz yollarda avarə,
Getdikcə azıb itdiyim?

Saçlarının gecəsində,
Röyalar qurub yatdığım?
Qəhrini lütf,
Zəhrini qənd
Adlandırıb,
Öz-özümü aldatdığım?

Hilal qaşın çatılanda
Göylərimdə günəş solur.



Kəhkəşanlarım yıxılır
Başıma saman sovrulur.

Yalanına ən müqəddəs
Gerçək kimi inanıram,
Sevda deyil, bəs bu nədir?
Yalanını bilə-bilə
Yenə sənə aldanıram.

*İstanbul – Tehran*

## XƏZƏL

Ovcumdakı altun qum dənələri
Barmaqlarımın arasından axır,
Göz yaşlarımla bərabər.

Günəş
Məğribin qan dəryasında
Boğulur.
Nəğmələr susur, çiçəklər solur,
Arxlar qurur,
Bağçalar xəzəl olur.

Və bu ölgün mövsümdə mən
Dayələr qədər durğun,
Yıxılmış ocaqların külləri misalı soyuq,
Köçmüş karvanların izlərində yaşayıram,
Məzar daşları kimi
Sönmüş həyatın qısır xatirələrini daşıyıram.

## AĞAC KÖLGƏSİ

Çox uzaqlardan gəldim;
Ayaqlarım qabar-qabar,
Gözlərim dolu,
Əllərim boş.

Mahnılarımı həramilər çaldılar –
Məndən heç nə
Gözləməyin
Bir tək
Çiçək
Belə.

Mənim aşdığım çöllərin
Yolları qum,
Gülləri zəqqumdu.

Keçdiyim yerlərə dönüb baxmadım
Dalımca su səpənim,
Xeyr-dua edənim,
Ürək verənim
Yoxdu ki?

İndi gəzərək addım-addım
Yalqızlığın qısır çölün, dərəsin
Axtarıram.

Bir yarpaqlıq sərin ağac kölgəsin,
Bir salamlıq saf sevginin səsin.



## BOZQIR

Bu
Bozqırda
Aylar il kimi keçər.

Nə qərib işdir ki,
Gözəl sevgilim,
Burada
Ömürsə yel kimi keçər.

Toplanar əməyin məhsulu dağ-dağ,
Qalanar ümüdlər də qalaq-qalaq.

Baxarsan ki, birdən,
Qaranlıq gecənin gec saatında
Qapılar qırılar,
Meydanda fırtına atın çapdırar,
Sındırar,
Parçalar, dağıdar, qırar...
Hər şey yox olar.

Və sonra
Hər şey təzədən başlar...

## KÖÇMÜŞ KARVANLAR İZİNDƏ

### 1. ÇOX GEC OLDU

Çox gec oldu –
Qaş qaraldı.
Yollar qıvrım-qıvrım gedir,
Mənzil hələ görünməyir.
Bizim karvan yolda qaldı...

Zaman – axşam,
Yorulmuşam.
Ayaqlarım şirim-şirim,
Əsamı tutmur əllərim.

Bir xəyaldır məni çəkib götürən,
Bunca ildir dizimə qüvvət verən.

Dağlar yenə kölgələrə büründü,
İlk ulduzlar qorxaq-qorxaq göründü.
Axşam çökür,
Məsafələr uzanır,
Ötələrdə elə bil bir od yanır.
Biz də burda
Bu gecə daldalansaq,
Dayansaq,
Bir od yaxsaq
Bir az rahata baxsaq,
Sabah bəlkə gün başqa yerdən çıxar,
Yatmış bəxtim dərin yuxudan qalxar.
O vaxt
Altı atlı araba gələr,
Alar məni
Sonsuzlara yüksələr.
Küləklərlə yarışaraq, uçarıq,
Qıy vurub da mavəraya köçərik...



### 2. TƏBRIZIM

Altmış ildir dolandığım elləri
Gözdən keçirirəm irəli-geri:

Budur,
Nazlı-nazlı durur
Önümdə
Canlı, cavan, təzə, şən,
Qızıl dağlar ətəyinə söykənən
Gəlin kimi al ipəkli Təbrizim,
Bal pətəkli
Gül-çiçəkli Təbrizim.

Yaşıl sona
Göllərində üzməkdə.
Qatar-qatar
Uçan quşlar,
Göylərində süzməkdə.

Dəstə-dəstə maralları
Dağdan-dağa gəzməkdə.

Axan sular
Gur bulaqlar
Dağa-daşa səs salır.

Hər tərəfə nəşə ətri yayılır,
Hər tərəfdən qəhqəhələr ucalır...

### 3. İTMİŞ SƏSLƏR

Bu səsləri mən tanıram,
Mən tanıram könül alan
Cana yaxın bu sözləri.

Uzaqlarda qaldı artıq yad ellər.
Sanki heç keçməmişdir ağır illər,
Əsməyibdir bağçamıza qorxulu qara yellər,
Körpüləri yıxmayıb yağı sellər.

Uzaqlarda qalıb artıq yad ellər.
Yadımdadır, tanışdırlar
Bu dərələr, bu təpələr, bu sıldırım yamaclar,
Çinar, palıd, iydə, qarağaclar...
Bu tarlalar başaq-başaq,
Bu bağçalar çardaq-çardaq,
Məhəlləmiz bucaq-bucaq,
O köhnə ev otaq-otaq,
Əski sevdalar
Utancaq...

Elə bil ki,
Gözlərimin önündədir
Əski dostlar, tanışlar;
Keçmiş illər,
Köçmüş zaman,
Röyalaşmış dadlı sözlər,
İtmiş səslər.

Uzun illər
Ağır, qarlı, soyuq qışlar ötəsində,
Köçmüş karvanlar izində
Sanki qarşımda durmuşlar
Röyalaşmış munis izlər,
Qulağıma əkseyləyir,
Anlaşılmaz unudulmuş dadlı sözlər,
Bitmiş səslər.
Qarşımda imiş kimidir,
İtmiş-getmiş tanışlar...

*Tehran, 1983; Nottinhem, 1994*



## BİR OVUC İŞIQ ÜÇÜN

*Müəllimim şair Sahirə*

Müəllim,
O gün də qapımı çaldın.
Titrəyirdi əlin.

Elimin matəmli qara günündə
Evimə,
Qəlbimə
Səfa gətirdin.

Əyləşdin
Bir yığın kitab önündə,
Şeir dəftərini əlinə aldın –
Oxurkən
Şimşəklər çaxdı gözündə...

Nisgilli, həsrətli, coşğun sözündə,
Elimin boğulmuş fəryadı vardı.

Oxudun,
Şerinin axışı məni
Uzaq sahillərə aldı, apardı;
Daldığım xülyalar sərxoşluğundan
Bir yanğın yerində birdən oyandım,
Yıxılmış yuvamın halına yandım...

Oxudun,
Hicranlı nəğmələrinə
Qaynayan ürəklər dilə gəldilər.

Köhnə yaraları eşdin
Və deşdin...

Ən gizlin diləklər
Dilə gəldilər...

Şair,
Unutmaram o uğursuz gün,
Necə yas tuturdum,
Qan ağlayırdım.
Bir ovuc işıqçün
Qurtuluş üçün
Ayları, günləri necə sayırdım.

## CAN ŞÜŞƏSİ

Uca dağ başında,
Duman
Olmasın!

*Qarabağ gülşəni*
Xəzan olmasın.

Daş atan namərdin
Qolu qırılsın,

Qırılsa can şüşəm
Cahan olmasın!

*London, 1994*



## HAQQ QAPISI

Qanadlandın uçmağa,
Haqq qapısın açmağa.
"Haqq qapısı kilidli"...

Haqq qapısın bilən yox,
Açar itibdir çoxdan!
Haqq bir xəyaldırsa da
Hər kəs ona inanar,
Özünü haqlı sanar.

Zülm altında əzilən,
Və əziləni əzən,
Birağızla bərabər
"Mən haqlıyam" deyərlər.

Əli qılıclı üçün
"Qılıc haqqı" haqların
Ən üstünüymüş məgər?

Haqq bir xəyal olunca
Heç qapısı olarmı?

"Haqq qapısı" varsa da,
İndi dünyaya hakim qarğaşanın içində
O qapını kim açar?

"Haqq" və "vəzifə" əgər
Eyni bir tək sikkənin
Bir-birin tamamlayan
Ayrılmaz üzləriysə
Niyə haqq axtaran çox,
Vəzifəyə baxan yox?

Mübhəm haqq məfhumunun
Cürbəcür dəllaları
Bazarları gəzərək
"Gəlin, burdadır qapı"
Deyərək,
Bağırdılar...

Arxasında kimsənin
Nə olub-olmadığın
Bilmədiyi qapını
Çalmağa çağırdılar.

Haqq qapısın bilən yox,
Açar itibdir çoxdan!

## ÇİÇƏK

Eşq ən böyük afətdən,
Çiçəkdən qurtularmı?
Çiçəklə məhv olan bir sevgi
Heç sağalarmı?

Görəsən afətlərdən
Arınmış təmiz eşqə
Heç rast gələcəyikmi?
Bu xəbəri nəşəylə
Heç eşidəcəyikmi?

Müjdə!
Qara quzğunun qanadları qırıldı.
Eşqin ayaqlarından kündələr qaldırıldı.
Həqiqət yalan ilə
Artıq qidalanmayır.



Sevginin ərməğanı "həlqədir"
"Zəncir" deyil.
Sevənlər sevdiklərin
Güdmək üçün
Bir daha
Keşikdə durmayırlar,
Bir-birinin yolunda
Pusqular qurmayırlar.

Nə gizlicə ciblərə,
Çantalara baxırlar,
Bir-birinin ardına
Nə xəbərçi taxırlar".

Sevgi bir dinə bənzər,
"İnam,
Şübhəsiz inam"
Onun təməl daşıdır.

Yoxsa belə olmasa,
Ən sonda yalan-doğru
Tapılar bir ip ucu.
Artıq səadət ölər,
Ardınca ümid, nəşə nəhayət uçub gedər.
Qısqanclıq şam yelidir,
Eşq odunu söndürər.
Qısqanclıq bir ağudur,
Eşqi kinə döndərər.
Qısqanclıq şərtsiz istila istəməkdir.
Mənliyin, xudbinliyin kor qüdrəti deməkdir.
Çiçəkdir bir çarəsiz, səfasız ağır-azar,
Ən səmimi
Ən dərin eşqə də
Məzar
Qazar.

## YASAQ MEYVƏ

Göyün mavi qucağında
Gülər üzlü, göyçək axşam günəşi.
Sonsuzluğa gedən səf ağacların
Bol alaca kölgəsində,
Yelin sovurduğu gül yarpaqları.
Hovuzdan-hovuza axan şəlalələrin səsi,
Quşların nəşəli nəğməsi...
Və bu cənnət bağçasında
Böyüklərin gözündən uzaq,
Bizim bitməyən oyunlarımız.

Köksdə pərilər qonaqlığı:
"Qızlar-Xanı" bütün günahlarıyla süslənmiş.
Həvvari pərilər dövrəsini almış;
Qədəhlər dolur,
Qəmlər unudulur,
Qədəhlər boşalır,
Könüllərdə gizlin üfüqlər açılır.
İtirilmiş fürsətlər,
Bir-bir yada gəlir
Və xatirələr zirvəsində,
Ulduzlar kimi sayrışır.
Qeydlər yaddan çıxır.

Ürəklər yüngülləşir.
O da təsadüfən oradaydı,
Qorxaq, utancaq
Hər zada yad, hər kəsdən uzaq.
Hardansa əlinə bir qədəh verdilər.
Rədd etməyi
Yox deməyi, bacarmadı.
Əlində qədəhin ağırlığı
Artdıqca artdı,
Və qədəh o anda
Hələ gərəkən, ömrünün ən mübhəm məsələsi oldu.



Hər tərəfdən israr
Vəsvəsəylə çalxalanan dumanlı hava,
Ürəkləri titrədən musiqi və mahnılar,
Qanları qaynadan bahar...

Qədəh sanki öz-özünə dodaqlarına dəydi,
Şərabın alov seli ağzını yaxa-yaxa boğazına axdı.
Əlindəki
Yasaq meyvənin qabığı, boş qədəhi
Bir yana buraxdı.
Yumdu gözünü
Hər yeri saran,
Dönüb dolanan
Dalğalara verdi özünü.

Bir az sonra
Gülər üzlü mehriban axşam günəşinə qarşı
Köşkə sığışmayan şənlik bağçaya daşdı,
Qonaqlar, biz uşaqlara yaxınlaşdı.
Ən başda "Qızlar-xanı" ətrafında pəriləri...
Onların içində
O da
Vardı.

Baxınca çaşdım
Başında illər ili daşıdığı
Kədər haləsi yox olub itmişdi,
Qəm-qüssəsi dağılmışdı, getmişdi.
Elə bil ki, dodağında alışılmadıq təbəssüm göründü.
Yavaş-yavaş
Bilmədiyi bir ləzzətin gül rəngli havasına büründü
Ona baxdım yenə çaşdım.
İndi də mən inanıram.

O gün
Ömründə onun
Ən gözəl, ən cazibəli görsəndiyi
Tək gündü.

## AXŞAM TƏTİLİ

Saat çaldı.
Küçələrə axşam ilə bərabər
Mədəndən insan seli boşaldı,
Ağır-ağır, dəstə-dəstə gedirlər.

Əllərində,
Başlarında
Geydikləri paltarlarda
Yorğunluğun hisli, tozlu kölgələri, izləri.
Üzlərində işıldayan
İki közdür
Gözləri.

Hər birinin
Can yoldaşı sığınacağı
Papirosu cibində.
Və bir tarla xəyalıdır
Keçmişlərdən arta qalan
Könüllərin dibində...

Bir zamanlar
O tarlada cüt sürənlər,
Dən səpənlər
Və bir nazlı qadın kimi həvəslərinə dözüb,
Onu candan sevənlər,
İndi yorğun-arğın
Enən bu axşamın
Quha dolan dumanını daşırlar.

Hər keçən gün
Yavaş-yavaş
Röyalaşan,
Tarlalardan
Daha uzaqlaşırlar.

*Şotlandiya, 1998*



## SON SEVGİLİM

Artıq son sevgilimlə
Qol-qola dolaşıram
O sevda çiçəyinin
Nəfəsilə yaşıram.
O işıq qaynağından
Sonsuz ilham alıram.
Qışın soyuqlarında,
Bahar şeri yazıram.
Ömrümü çulğalayan
Qara qüssələr hisi,
Bayquşların durmadan
Ağlayan iniltisi,
Dərinlərdən əks edən
Ölümün ayaq səsi,
Artıq məni qorxutmur.
Dibsiz quytuluqlarda
Onun baxışlarından
Dalğa-dalğa axan nur
Ürəyimi doldurur.
Büdrəsəm odur əsam.
Onsuz yetim qalaram.
Əlimdən o tutmasa
Nə yazıb, nə pozaram!

# RÜBAİLƏR

## NAĞIL

Yeni ay
Bəzəyir göyü
Gecələr.

Yeni gün
Məşriqdən

Çıxır
Hər əhər.

Nə çıxar
Olsa da,

Bu sonsuz nağıl
İstər yüz,

İstər min kərrə
Mükərrər?



## DÖVRAN DOLANIB...

Dövran dolanıb,
Bir dolu ikram etdi.

Sandım ki, vüsalə yetdim,
Hicran bitdi.

Şövqün həyəcanla
Qədəh
Çevrildi.

Qafil könül, ağla!
Fürsət əldən getdi.

## İZİM

Tuş gəldi izinə,
Mavəralarda izim.

Birdən-birə
Coşdu, çalxalandı
Dənizim.

Röyadan oyanmadan uzat qollarını,
Bir yol daha
Qoy o maviliklərdə üzüm.

## VAXT OLDU YENƏ...

Vaxt oldu yenə,
Əzan səsi yüksəlsin.

Öldün, gecədən
Qopan fəğanlar
Gəlsin.

Xoş gəldi bahar,
Yağdı neysan yağışı.

Şayəd də
Bizim çürük ağac dirçəlsin.

## GÜNƏŞ SARALDI...

Məğribdə sönən günəş,
Saraldı, gözəlim.

Artıq gecə gəldi,
Qaş qaraldı, gözəlim.

Gəl halımı gör,
Durub da gendən baxma.

Fürsət daha yox,
Zaman daraldı, gözəlim.



## HƏSRƏT ƏLİNDƏ

Qulağım
Gecənin axan selində.

Gözlərim
Səhərin sonsuz yolunda.

Dilim yox,
Əlim boş,
Ürəyim dolu.

Dolanır xəyalım həsrət əlində.

## GECƏ

Uzaqda
Dalbadal
Şimşəklər çaxır.

Üfüqdə
Qıpqızıl,
İzlər buraxır.

Gecənin
Keçdikcə rəngi saralır.

Ağaclar boylanmış
Dağlara baxır.

## MACƏRA

Xızır tək
Zülmətdən işığa erdim.

Sehrli röyalar bağına
Girdim.

Yaqut qədəhlərdən
Doyunca içdim.

Sevda şəbnəmlərin
Güllərdən dərdim.

## ZƏHMƏTLƏ YAŞADIQ

Zəhmətlə yaşadıq,
Həsrətlə yandıq.

Gələni
Dost sandıq,
Gedənə qandıq.

O qara günlərdən
Heç dərs almadıq.

Görəsən
Gerçəkdən
İndi oyandıq?



## YALAN

Vurduğun yalandır,
Tutduğun
Yalan.

Gəldiyin yalandır,
Getdiyin
Yalan.

Bu əyri "asta"da
Düz iş
Görülməz.

Aldığın yalandır,
Satdığın
Yalan!

## GƏLİR

Şəhərdə küy düşüb,
Nazlı yar gəlir.

Bir ömür yubanan dildar
Gəlir.

Qorxmuram yenə də xəbər boş çıxa.

Eşəyim
Ölmə qal,
İlk bahar gəlir!

## İNCƏDƏN-İNCƏ

Açmışdı süfrəsin
Ulduzlu gecə.

Bölüşdük
Çörəyi,

Balı
Qardaşca.

Təbiət
Əmdirdi
İsti döşündən.

Bizlərə
Sevgini
İncədən-incə.



# POEMALAR

# TƏBRİZ

Çevirdim səhifələri bir-bir,
Birdən qafilgir oldum.
İftixarla, sevinclə doldum.
Bir təsvirdə Təbrizim,
On altıncı əsrdəki halı ilə,
Heç görmədiyimiz cəlalilə
Qarşıma çıxdı.
Meydan çayımızdı
Gurultu ilə axıb gedən –
Tam yeddi körpüdən.
Şəhrimizin hər yanı divardı,
Dörd səmtə dörd qapısı vardı.
Görkəmli min bir bina –
Bağlarla, baxçalarla süslənmiş.
Şəhərim sanki
Min bir gecədən bir röya,
Öyünərək Eynalıya söykənmiş
Və yanında bir yazı vardı.
Oxudum köksüm qabardı,
Hər sözü min iftixardı.
Deyirdi ki: – Əzizim,
Doğma Təbrizim.
Üç min ilin yadigarı.
Məsələn:
İsa Məsihdən 714 il qabaq
İkinci Sarğonun cəld və qıvraq
Qoşunun gəldiyində,
"Tarui" yaxud "Tarmakis" adlanan
Şəhərimin içində,
Zəif bir günəş kimi parlardı.
Və sonra, nə acı qədər:
Miladdan yeddi əsr əvvəldən
Yeddi əsr keçənə qədər,
Yad ellərin,

Xain əllərin
İşğal vəlvələsinə,
Qara illərin sel və zəlzələsinə
Giriftar idi.
Ürəklərə qəm doldu.
Təbriz bir kor kənd oldu.
Buna rəğmən hərgiz
Bükülmədi belimiz.
Onuncu əsrdə də
Təbriz,
Görkəmli, şanlı,
Adlı-sanlı,
Bir şəhər deyə keçdi dəftərə.
Yayıldı şöhrəti qərbə, şərqə,
Hər yerə.
Və parladı Eldəniz...

Sonra Moğollar gəldi,
Şəhər xalqı ərməğanla, qurbanla,
Təhlükəni sovdular.

Qapıya dayanmış bəlanı qovdular.
Sonra... yenə parlaq günlərdi:
Şəhərimiz Abaqan
Və İlxan
Paytaxtı məqamına.
Qazan xanlar,
Soltan Məhəmməd, Əbu Səid soltanlar
Zamanında bu diyar çox şöhrətli bir yerdi.
800 min insanlı,
Ən mədəni, varlı, qüdrətli; şanlı
Zorlu, zəngin, hünərli şəhərdi.
Bu zamanlar
Beylankidə
7000 tələbəli, 450 ustadlı,
Rəb-Rəşidi adlı



Ali məktəb tikildi.
Orada, oranın kitablığı içində,
60 min cild kitab vardı.
Minlərcə əmələ,
Boyaqxana, kağız, parça fabrikində
Səhər-axşam çalışardı.
Acı Çayın qırağında,
Şamqazanın çəmənində, bağında,
Açıldı böyük Rəsədxana
Və adı-sanı yayıldı hər yana.
Şəhərimiz Şərqin incisi oldu,
Karvansaraları dörd tərəfdən gələn
Və cürbəcür mal gətirən
Saysız karvanlarla doldu.
Qazan xanın məqbərəsi, məzarı,
Əlişahın məscidi,
Ərki, şəhərin Böyük bazarı,
Bazarda Müzəffəriyyə xanı,
Və Göy Məscid, –
Məbədlərin ən ulusu, gözəli,
Boy atdı.
Şəhərimiz
Biliyin və mədəniyyətin
Ən üstün nümunəsin yaratdı.
Karvanların tutduğu iz
Bizim qapımıza çatardı.
Onlarca bazar,
Yüzlərcə karvansara,
Hamam və məscidimiz
Minlərcə evimiz,
Bağımız və bağçamız vardı...

Teymur
Və övladının axın-axın yürüməsi,
Və sənət sürgünündə
Yaşayışın əriməsi, çürüməsi,

Arxa-arxa zəlzələlər və bəlalar,
Və dal-dala yıxıntılar, istilalar,
Baharımızı soldurdu...

Beləcə də davam etdi tariximiz...
Hadisələr, vaqiələr
Günümüzü, könlümüzü,
Gah qüssə ilə, gah şadlıqla doldurdu.
Biz həm güldük, həm ağladıq.
Amma hər vaxt amansız yağı düşmənin,
Yurdumuza qəsd edənin,
Axırda gözün dağladıq.

İl 1502 oldu.
Ölkəmizin iyid, qorxmaz, vəfalı oğlu
Xətayi Şah İsmayıl
Səs verdi xalqın səsinə,
Son verdi şəhərin yaşına,
Döndü yurduna, obasına.
Dillərdə oldu dastan
Paytaxtımız,
Əziz Təbriz.
Və ölkəmiz,
Azərbaycan!
Dirildi, dirçəldi İran...
Lakin yarım əsr sürdü
Bu şan, bu şən dövran.
Ellərin qüdrətindən,
Sualından, sorğusundan
Qorxan qaçan,
Öz kökündən qopan Soltan,
Yanındakı yaltaqlarla,
Alçaqlarla,
Yurdlarını tərk etdilər
Və İsfahana getdilər.
Və 1571-də,



Yəni düz
Üç yüz il
Paris Komunundan qabaq
Təbrizdə rəncbər, işçi
Zülmə artıq yetər dedi.
Əlində bayraq,
Azadlığı daddı.
Gərçi acdı – sevinirdi, çünki azaddı!
Osmanlı-Səfəvi savaşı yanğından, taundan
Oldu betər.
1585-də yaşadırdı ölmə-diril
Ancaq otuz qırx min nəfər.
Lakin bu fırtınada da çökmədi otağımız,
Sönmədi ocağımız.
On yeddinci əsrin yarısında,
Alovlar arasında,
Tazədən canlandı
Bu ölməz Səməndər.
Baxın şəhərimiz genə Fəcr ilə boyandı.
Şəhərim bu işıqlı çağında,
Bəsləyirdi 600 min təbrizlini
Məhəbbət qucağında.
Təbriz ayaqda dağ kimi dururdu,
Köhnə Şərqin qəlbi vururdu.
Qara illər genə qapımızı çaldı.

1721 zəlzələsi ölkəmə haray saldı –
80 min insan
Getdi qurban.

Dörd il keçmədən
Genə Osmanlı savaşı –
Qan tər və göz yaşı,
Döyüş, yəğma,
İstila...
30 min kişi keçirildi qılıncdan,

*Evlər yıxıldı, talandı, xərmənlər yandı...*
Elə çökdük, qaranlıqlara büründük
Və düşdük ki, Təbriz xanlığı Gilana bağlandı...
Beləcə yüz il süründük.

Amma yavaş-yavaş
Fikirlər aydınlandı.
Əsrimizin ərəfəsində
Gərçi şəhərimizdə
Az-çox bir şeylər vardı,
Genə də ərsə insanlara dardı.
Ölkəmizdə hakim əbədi qışdı.
Rahat qaçmışdı.
Zillət artmışdı.
Ədalət yadlardan çıxmış bir röya.
Azadlıq və həm də yaşayan ənqa,
Müsavat məntiqə sığmaz xəyaldı.
Heç kimsə xanlardan soruşmaz hesab.
Yaşayış bitməyən iztirab.
Tərəqqi bir fərzi-mahaldı.
Birdən-birə saat çaldı.
Dörd yanı yanğın aldı.
İgidlər, mərdlər, mücahidlər
Xalqın səsinə səs verdilər.
Səttarxanın bayrağı üfüqlərimizi sardı.
Qəlblər işıq,
Dizlər qəyim,
Hüseyn bağbanlar,
Heydər Əmioğlular, Bağırxanlar,
Və səf-səf adsız qəhrəmanlar,
Hürriyyətin uğrunda savaşdılar, çalışdılar,
Qan töküb, can verdilər...
Beləcə də üsyanlarda,
Tufanlarda,
Meydanlarda
Qazanılan böyük zəfər,



Oldu Tehranda əyləşən
Müftə yeyən, yalan deyən,
Tülkülərin qumarında
Hava,
Hədər.
Qıldı axır Şeyx Məhəmmədə
Xəyanətin qara əli.
Xiyabani şəhid olub
Aramızdan gedəli
Baxtımız yatdı,
Ulduzumuz batdı.
Qismətimiz kabus, ölüm, sürgün,
Qanlı istibdaddı.
Var-yoxumu talayıb,
Sındırdılar belimi.
Əlli dörd il boyunca
Bağladılar dilimi.
Və heç də utanmadan
Elimə böhtan dedilər,
Dilimə yaman dedilər,
Varlığımı dan dedilər,
Yalana aldan dedilər.
Lakin şəhərim
O sonsuz dəhşətlərdən silkindi.
29 Bəhməndə
Fəcr əli ilə qaranlıq
Üfüqlərdən silindi.
Və bir il keçmədi ki,
İnqilab Günəş kimi
Qaranlığa son verdi.
Bizə bahar gətirdi,
Genə ümid budağı qönçələndi, gül açdı,
Genə gözəl Təbriz sözə gəldi, dil açdı.

*Tehran, fərvərdin, 1359*

## DASTAN ÖLMƏZ

Qartalların qatarı
Artıq qayıtmaz oldu.
Sahillərə ordu-ordu
Ləşxor quzğunlar doldu.
Qorxu ilə çalxalandı ümmanlar.
Dərin-dərin
Dənizlərin
Hakimi idi qorsanlar.
Qara bayraq çəkildi yelkənlərə.
Qorxusundan qaranlığa
Sinmiş idi limanlar...
O bir yandan
Afrikada –
O yerlərin ən uğursuz,
Ən qaranlıq gecəsi.
Gəmilərdən
Qayıqlarla,
Silahlarla
Gizlin-gizlin
Kölgə kimi
Sahillərə yanaşdılar,
Ayaqların dərə-dərə, səssiz-səssiz
Bir yuxulu qəsəbənin
Divarlarını aşdılar,
Ağaclıqda saatlarla
Ovçu kimi oturdular,
Pusquların qurdular...
Verilən bir fərman üzrə
Birdən-birə
Bağır-bağır bağıraraq,
Ağır-ağır yanan xəlqin
Evlərinə töküldülər.
Dağıtdılar, yandırdılar, vurdular,
Sındırdılar, qırdılar!



Yuxudaykən daxmalardan qız, oğlanları,
Dəliqanlı
Cavanları çaldılar.
Sürü-sürü əsir edib aldılar.
Qollarına qalın zəncir taxdılar.
Sürükləyib sahiləcən çıxartdılar.
Qayıqlarla tərk etdilər limanı.
Bu amansız matəm-ölüm karvanı
İçindəki kölələrlə
Hey sallana-sallana
Yol aldı günbatana...
Günbatanda
Yeni Dünya
Ən iyrənc bir ticarətin
"Baş bazarı" olacaqdı.
Afrikadan çəkə-çəkə
Gətirdikləri zəncirləri –
Əşya kimi
Satacaqdı,
Alacaqdı,
Qara günə salacaqdı...

Bundan belə
Hər il yenə
Tək Sendominiq şəhərinə
Bu cür otuz minə qədər
Zənci kölə endirdilər,
Daşıdılar
Dənizləri yara-yara,
Yüz əlli il müddətində
On beş milyon zənci insan Afrikadan
Oralara...
Ölüm Haitiyə gələn zəncilərdən
Milyonların canın aldı.
Bu ölkədə
Beş milyondan bir az artıq

Zənci qaldı.
Arada bir deyirdilər: – Zənci nədir?
Deyirdilər:
– Onun qismətidir təhqir,
Baxtı üzündədir – qara,
O qədərin əsiridir.
Bu yazıya olmaz çara...
Amma əsrlərdən sonra
Göz yaşıyla suvarılmış,
Tapdalanmış torpaqlara
Quylanmış bir daxmacıqda,
Səhər vaxtında gecə rəngində qap-qara
Maqandal gözlərin açdı;
Ona günəş,
Ona torpaq,
Ona eli,
Öğüd, əmək, can verdilər,
Qan verdilər.
O, böyüdü... Onun səsi yüksələndə
Dağılırdı əsrlərlə sinələrə sinmiş
Əsarət sisləri.
Sözlərindən qabarırdı
Ürəklərdə ən ülvü insan hissləri.
Bir yanğın tək bayrağının
Şöləsindən kül olurdu müşküllər.
Onun adı bir ovsundu –
Dizlərə qüvvət gətirən,
Ürəklərə işıq verən.
Onun artan şan-şöhrəti
Dillərdə olmuş dastan.
Uzun qara qış gecəsi danışırdı zənci eli –
Maqandaldan...
Çətin döyüşlərdən sonra oldu o,
Eşsiz qəhrəman.
Düşmənlərin əsiri.
Ertəsi gün



Sabah tezdən bir bayramdı bəylər üçün.
Bir meydanda Maqandalı
Yandırdılar diri-diri.
Zəncilərdən,
Bir çoxları inanmadı
Maqandalın ölümünə.
Bu belədir: el könlündə yatan ölməz,
Nağılda qəhrəman ölməz, –
Dastan ölməz.
Gəldi zaman, keçdi zaman,
İllər ötüncə aradan
El izindən ayrılmadı,
Sözün qürbətə salmadı.
Fırtınalı bir gecədə
Şanlı "Vudu" ayini ilə
And içdilər,
Birləşdilər.
O tufanla qaranlıqda, dağ başında
Zəncilərin fəryadları
Buludlara yüksəlmişdi.
Bir aralıq ildırımlar şaxtığında
Eşidildi bir kehilan kişnəməsi.
Hamı susdu.
Cingildədi qulaqlarda "O"-nun səsi.
Hər kəs bildi:
O, törənə Maqandal da gəlmişdi.

## GÜNƏŞ

İrigilə dizmarilər zənbillərə yerləşib
Gülərüzlü sarı-sarı təbərzələr
Ağır-əziz tabaqlarda əyləşib.
Narıncılıqdan qonaqlar tək ehtiramla gətirilmiş:
Şaftalılar şəlilər, Əlilər
Olğun, dolğun, yetişmiş,
Elçi gözlər qızlar kimi
Alıcı axtarırlar...

İşıq saçan dükanlarda
Düjün-düjün oyuncaqlar,
Hər qutuda bir sehr var, bir sirr var
Düzülüblər –
Ətləs donlu, məxməl yelli qara qaş-göz qolçaqlar
Nazlı-nazlı baxırlar...

Gecə-gündüz dağlar aşan karvanlar qatar-qatar.
Çindən gələn ipəklilər, boşqablar
Şamdan şüşə, Misirdən buğda, arpa,
Dənizlərdən inci, çöllərdən xurma
Altun külçə fil dişləri Afrika ellərindən,
Faxır xəzlər, samurlarda quzey sahillərindən,
Hindistandan ədviyyələr, dərmanlar,
Gecə-gündüz dağlar aşan qatar-qatar karvanlar...

Qat-qat üstə imarətlər, saraylar,
Göz işlədikcə gül, çiçək, yarpaq, budaq, çardaq...
Fəvvarələr, şəlalələr, çeşmələr, arxlar, çaylar...
Orda huridən dəstələr,
Burda qılmandan alaylar...
Lakin bura çatmaz bizim dünyamızdan ərşə çıxan ahlar, vaylar, haraylar...
Qapıları dəmirdəndir, qıfılları poladdan,
Dörd dövrəsi Daş divarlar



hər Daş üstə silahlı bir pəhləvan
Qılınc, qəmə, toxmaq, nizə, qalxan, ox, kaman...

Sanki hər şey qorxu-qorxu
Sanki hər yan deyir: – Qan. Qan.
Ölüm iyi verir hər yer
Darvazalar, hasarlar...

Bəli, ətli şaftalılar, hulular
Tabaqlara düzülür.
İşıq saçan dükanlarda
Oyuncaqlar üzə gülür.
Uzaqlardan qatar-qatar dəvələrlə mal gəlir.
Saraylarda tirmə, ipək mixəttələr döşənir,
Yatmaq üçün atlas yastıq, yorğan –
Döşək sərilir...
Lakin unutmayın, dostlar,
Sizin üçün bəzənməmiş
Xalçalarla, çıraqlarla
Lalələrlə, mərdəngilərlə bazar.
Sizin üçün qurulmamış,
Kuzərlərdəki tağlar,
Sizin üçün sərilməmiş
İpəkli qu yataqlar...

Mən də
Sizin dilinizdən
hər gün fələk divanına
Bəxt əlindən
Tumar-tumar
Ərizələr yazanıyam.
Mən də sizin
Bağrı dağlı,
Dili bağlı,
Sazı sınıq,
Könlü yanıq

Ozanıyam.
Almas qaşlı Misri qılınc
Beldə yox.
Polad dırnaq kəhər atın cilovları –
Əldə yox.

Əsrlərdir
Güvəndiyimiz dağlara qar yağıb.
Ağır illər,
Elimizin dübəndini dağıdıb
həramilər karvanımın yolun kəsir.
Çənlibeldə yellər əsir.
Baxdığında əldə qalan
Ucu sınıq bir qələm var.
Bir dəst kütəlmiş əsləhə,
Bir də qocalmış Rüstəm var.
Bu zahirdir
Ozan üçün.
Həqiqətdə daha başqa bir Aləm var:
Qış zumarı
Göyqurşağı rənglərində.
Arzularla, umudlarla
Doldurulmuş xəzinəm var.
Kainatı qaranlıqlar
Tutduğunda
Mənim iman günəşilə
İşıqlara qərq olacaq
Bir sinəm var.
Bu dağ günəş sönmədikcə,
Şaxtalarda ruhumuzu buz tutmaz.
Göyqurşağı
görsəndikcə,
Sam yelləri
Ümidlərin rişəsini qurutmaz.

Bir axşamdı:
Bilinməyən bir kamanın



Yaylarından
Pərdə-pərdə aşıb gəldi
İlk baharın nəğməsi.
Çox keçmədən
Cavab verdi ona çoşqun
Bir bəstə ilə tar səsi.

Bu iki səs yavaş-yavaş
Arzuların divarından boylandı.
Bizim evə calandı.
Eynən Musa əsası tək
Xəyalatları yıxdı.
Tilsim batil oldu.
O səs mənim qulağımdan
Bir arx kimi ürəyimin
Susuz çölünə axdı.
Orda illərdən bəri
Quruyub qovrulan bir göl
Bu nəğmənin səsi ilə
Titrəyərək
Ağır ölüm yuxusundan oyandı,
Qocaman bir alovda
Turdakı kol misalı
Bir günəş oldu, yandı.

# KİTABDAKILAR

*Gələcək nəsillərin müasiri* ....4

ŞEİRLƏR

Gümüş xalxal....17
Hər rəngdən....18
Yas....19
Gecə yarısı vağzal....20
Xatirələr....22
Həsrət....25
Ürəkdən sevmədən....26
Dumanlar ölkəsi....26
Nə söyləsən mənə xoşdur....28
Bir yay günü ikindisində....29
Ölkəmin yollarında....30
İstanbulda "Bit bazarı"....31
Hanı?....33
Qızıl alma....34
Şiraz....35
Qaraquş....36
Ovsun....37
Şeyx Məhəmməd....38
Bir ildönümü....39
Şəhərə çıxan bir yol var....40
Əqrəb gecəsi....42
Bahar və işıq....43
Unutdum....45
Elimin qucağında....46
Çıxmaz yollar....47
Bu gündən sabaha....49
Petronius....50
Üçüncü dünya və çoxluq....51
"Lalə"....52
Bahara inanmaq....53
Ağı....54
Söylə mənə, falçı nənə....56
Həsrətdən dönüş....57
Bizim ağac....58
Nağıl kitabı....59



Vəhşi quş....60
Xülyalar günü....61
Divan şeri bağçalarında....62
Altı nəslin xəyalı....63
Röya....63
Qonaqlıq....64
Üşüyən ay....65
Göz yaşı....67
Soruşma heç....69
Yağsın yağış....70
Buludlar....70
Biz-bizə....72
Nildə mərmər sandıqça....73
Sənsiz....74
Tanışlıq....75
Fal....76
Əllərində ulduzlar....77
Yeni gün – Novruz....78
Nisgil adlı röya....79
Bakı....80
Qayğılı şəhər....83
Tikanlardan hörülmüş....86
Sual....88
Saatlar....89
Qatar – 1942....90
Eynalı....91
Röyamda anam....92
Əllərim....94
Bayram....95
İşıq....96
Çənlibel....98
Süd və bal....99
Yol....100
Kimliyim....101
İki heca....101
Venüs....102
Tərcümə....102
Qırx tikə boğça....103
Bitməmiş senfoni....104
Eşq mahnısı yazıram....105

Abidə ..........106
Xəyal-heykəl..........107
Sevda ..........108
Xəzəl ..........109
Ağac kölgəsi..........110
Bozqır ..........111
Köçmüş karvanlar izində..........112
Bir ovuc işıq üçün ..........115
Can şüşəsi..........116
Haqq qapısı..........117
Çiçək..........118
Yasaq meyvə ..........120
Axşam tətili..........122
Son sevgilim..........123

RÜBAİLƏR

Nağıl ..........124
Dövran dolanıb... ..........125
İzim..........125
Vaxt oldu yenə... ..........126
Günəş saraldı... ..........126
Həsrət əlində..........127
Gecə..........127
Macəra..........128
Zəhmətlə yaşadıq..........128
Yalan..........129
Gəlir..........129
İncədən-incə ..........130

POEMALAR

Təbriz..........133
Dastan ölməz..........140
Günəş..........144



**HƏMİD NİTQİ (AYTAN)**

**SEÇİLMİŞ ƏSƏRLƏRİ**

"AVRASİYA PRESS"
BAKI-2005

| | |
|---|---|
| Buraxılışa məsul: | *Umud Rəhimoğlu* |
| Texniki redaktor: | *Mübariz Piriyev* |
| Kompyuter səhifələyicisi: | *Azər Quliyev* |
| Korrektor : | *Tofiq Qaraqaya* |

Yığılmağa verilib 04.12.2004. Çapa imzalanıb 17.06.2005.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 9,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 158.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç., 17.